# TOY

*5 pərdə, 8 şəkildə*

## İŞTİRAK EDƏNLƏR

Kərəmov – "Şəfəq" kolxozunun sədri
Salmanov – kolxozun katibi
Mirzə Hüseyn – hesabdar
Ziynət, Surxay – briqadirlər
Zalxa, Mehralı, Şirəli, İbrahim kişi, Təmraz, Məmmədəli – kolxozçular
Musa – dəmirçi, təktəsərrüfatçı
Şeyda – müəllim
Kamilə – makinaçı, Kərəmovun qardaşı qızı
Kolxozçular, qonaqlar və başqaları

## BİRİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Uçqar kəndlərdən birində "Şəfəq" kolxozunun idarəsi, böyük səliqəsizlik, köhnə formalı rayon telefonu. Divarda iri xətlə yazılmışdır: "Tənqidi və şəxsi tənqidi yüksəklərə!" Səhnədə Salmanov və Mirzə Hüseyn. Pərdə açıldıqda Kərəmov çöldə kiminləsə danışaraq haray-hurayla içəri girir. Mirzə Hüseyn və Salmanov onu görüb, cəld ayağa qalxırlar. Kərəmov onlara əhəmiyyət vermədən stoluna yaxınlaşır və telefonu götürür.

Kərəmov. Qadan alım, barişna, mənə ispalkomu ver. Hardandır? Nə, pojarnı komanda? Atboy ver, ay barişna, ispalkomu ver, ispalkomu. Adə, sən ölәsən, bu barişna məni divara yeritmədi? İspal-

komdur, hə?.. Hardandır! Yenə pojarnı komanda? Tfu... (*Dəstəyi yerinə asır*) Lap ağlımın yerini itirmişəm. Üç gündür bu aparatın zəhləsini tökürəm, danışa bilmirəm ki, bilmirəm. Evini kommunxoz yıxsın, ay barişna. İndi bəs nə eləyək? Taxıllar qalıb çöldə, maşınlar çatışmır, araba da yox.

M i r z ə H ü s e y n. Yoldaş Kərəmov, bəs təmir haqqında fikriniz necədir?

K ə r ə m o v. Fikir haradandır, a kişi? Bu gurultuya fikir davam eləyər? Təmiri kim eləyəcək? Kənd kənd deyil ki...

S a l m a n o v. Dəmirçi Musaya tapşırsaq, iki gündə təmir eləyib, bütün arabaları işə salar.

M i r z ə H ü s e y n. Yoldaş Salmanov düz deyir, Musa bu işin öhdəsindən tez gələr.

K ə r ə m o v. Yox, yoldaş, o qiymətə sərf eləmir, köhnə dövrün qırıntılarını mənim başıma yığmayın. Fərdi təsərrüfatla əlaqəm yoxdur. Canım, bəs deyil? Dəmirçi Musaya məndən iznsiz iki dəfə iş tapşırmısınız, hələ də sçotları asılıb qalıb xirtdəyimdə. İspalkomun buxalterini tanımırsan? Onun qapısından sçot keçirtmək fitbol topunu o balıq torundan keçirtməkdən çətindir. Ah, bu buxalterlər, buxalterlər. Bağışla ha, Mirzə Hüseyn, kefinə dəyməsin.

M i r z ə H ü s e y n. Eybi yoxdur, yoldaş Kərəmov, tənqiddən kim inciyər? Ancaq məsələ ondadır ki, arabalar təmir olunmasa, taxıllar çöldə qalıb çürüyəcək, planı yerinə yetirə bilməyəcəyik.

K ə r ə m o v. Olmaz, dedim, qurtardı, bizimkiləri mən yaxşı tanıyıram. O müəllim yoxdur? Pedaqoq deyil, demaqoqdur, zalım oğlu, vallah, adamı dirigözlü yeyər.

S a l m a n o v. Dəmirçi Musanın ki, kolxozçular arasında böyük hörməti var, müəllim nə söz deyə bilər?

K ə r ə m o v. Məni də yandıran odur da... İndi hörmət eləyirlər, amma sabah, kolxoz təftiş olunanda hamı yaxasını qırağa çəkib duracaq. Yenə də mən Kərəmov sinəmi verəcəyəm qabağa. Olmaz, qurtardı, imza Kərəmov.

M i r z ə H ü s e y n. Nəticə etibarilə yenə də sizi müqəssir edəcəklər.

K ə r ə m o v. Niyə? Məni niyə təqsirləndirirlər? Mən neyləyim ki, kolxozun on arabası var, hamısının təkəri dönüb bizim rayon telefon idarəsinə, bir gün işləyib, on gün bellərinə təpitmə salırlar. Maşınların ki, heç söhbətini eləmək lazım deyil. Bunların hamısını protokolda bir-bir



yazdırmışam. A kişi, kənd kənd deyil ki, heç bu cür dünyanın qurtaracağında da kənd salarlar?

S a l m a n o v. Ancaq məhsulun çöldə qalmağı yaxşı deyil.

M i r z ə H ü s e y n. İndi elə zamandır ki, mincə pud taxıl ömrünü sizə bağışlayar, elə onun üstündəcə bu kolxozçular siz boyda adamı güdaza verərlər. Yox, yoldaş Kərəmov, protokol yazdırmaq öz yerində, onsuz bu kolxozu dolandırmaq olmaz. Ancaq arabir təmir işlərinə də nəzər yetirmək lazımdır.

K ə r ə m o v. Mirzə Hüseyn, sözlərindən bir az iy gəlir ha... Qabaqkı buxalteri elə bu cür sözlərin üstündə işdən çıxartdım. Axır zamanlar bir az sən də kələ-kötür danışmağa başlamısan.

M i r z ə H ü s e y n. Xeyr, yoldaş Kərəmov, nə danışırsınız? Yoldaş Kərəmov, bu çotkə haqqı, böhtandır. Mənim çörəyim bu çotkədən çıxır, yalan demərəm.

K ə r ə m o v. Sən öləsən, bu kolxozun adını "Şəfəq" kolxozu yox, "Tənqid" kolxozu qoymaq lazımdır. (*Birdən gözü divardakı şüara sataşır, əyri vurulduğunu görüb çığırır*)O soxanın ucunu düzəldin. (*Otaqda hirsli-hirsli gəzişir, sonra oturur*) Bəli, deyirlər, bu gün Ziynət xanım təşrif gətirir. Onu Bakıya kolxozçular konfransına göndərdim ki, bir-iki gün qulağım dinc olsun, ancaq yox... Orada nitq irad elədi, qəzetə düşdü, indi də budur, qayıdır, deməli, təzədən düşəcək işə. Canım üçün söz vermişəm, gördüm, bir az o yan-bu yan eləyir, çevirəcəyəm çomağın o biri başını, hələlik, mən ona hörmət eləyirəm necə ki, mən bir mədəni adam, o da zənən xeylağı.

M i r z ə H ü s e y n. Bəli, yoldaş Kərəmov, Ziynət çox incə vücuddur.

K ə r ə m o v. İncədir, kobuddur başım çıxmır, ancaq onu bilirəm ki, arvaddır. Arvad yıxan evi fələk də remont eləyə bilməz.

S a l m a n o v. Ancaq, nədənsə, kolxozçular onu çox sevirlər.

K ə r ə m o v. Sevsinlər də... Onlarda baş yoxdur ki, kimi sevdiklərini bilsinlər. Onlar dəmirçi molla Musanın da dükanına gedib-gəlməkdən əl çəkmirlər.

S a l m a n o v. Hətta, dəmirçi Musanın özü də Ziynətə hörmət eləyir. Staxanovçudur, qabaqcıl bir qızdır. Nə cür ola bilər ki, kolxoz sədrinin ona qarşı...

K ə r ə m o v (*onun sözünü kəsir*). Dayan, Salmanov, deyəsən, sən də atılıb keçdin tənqidə?

S a l m a n o v. Xeyr, yoldaş Kərəmov, mən sizin xüsusi katibiniz olduğum üçün məsləhət eləyirəm.

K ə r ə m o v. Kərəmova məsləhət lazım deyil. Kərəmov nə eləmək lazım olduğunu çox yaxşı bilir. Adə, mən sizin başınızın tükü sanı məsul işdə olmuşam. Yox, gərək bu kolxozuma bir əl gəzdirəm. Gərək bu kolxozda bir nizam-intizam yaradam ki, ixtiyarımda olan bütün adamlar qabağımda kəmərbəstə dayansınlar. Gərək elə eləyəm ki, mənim ağzımdan çıxan söz qanun kitabına yazılsın. Salmanov!

S a l m a n o v. Bəli, yoldaş Kərəmov.

K ə r ə m o v. Təcili kağız yaz. Surəti rayon icraiyyə komitəsinə.

S a l m a n o v. Bəs əsli hara?

K ə r ə m o v. Əsli? Əslini özün bilirsən ki! Rayon partiya komitəsinə. Təkərlər barədə... Mirzə Hüseyn, Kamiləni çağır makinada yazsın. (*Mirzə Hüseyn çıxır. Kərəmov əli dalında otaqda gəzib, diktə eləyir*) "Şəfəq" kolxozunun, son zamanlarda, mənim rəhbərliyim altında, planı yerinə yetirərək artıqlamasilə ödəməsi və eyni zamanda, qarşıdakı çətinliklərin indidən ləğv edilməsi üçün gördüyüm böyük tədbirlərin...

K a m i l ə və M i r z ə H ü s e y n gəlirlər.

K a m i l ə. Əmi, nə deyirsən?

K ə r ə m o v. Min kərə sənə tapşırmışam ki, idarədə mənə əmi demə. Mən əmiyəm, – evdə, burada – "Şəfəq" kolxozunun sədri yoldaş Kərəmovam. Gəl otur, bu saat taqqa-tuq eləyəcəksən... Salmanov, dalını yaz! Harada qalmışıq!

S a l m a n o v. Mən heç yazmağa başlamamışam. Bayaqdan qələmi çərtirdim.

K ə r ə m o v. Sənin də qələm-dəftərinin düzgün vaxtını görmədim. Nə yaxşı cümlə düzəltmişdim, indi mən onu bir də yadıma necə salım? (*Kamiləyə*) Yaxşı, dur, sən get evə, lazım olar, çağıraram. Nə üzümə baxırsan? Dur deyilmədi?

Ş e y d a içəri girir, onların söhbətinə qulaq asır.

K a m i l ə. Əmi, sən həmişə mənimlə...

K ə r ə m o v. Yenə əmi? Yenə əmi? Sən öl, bu cavanlara söz başa salmaq olmur ha... Mən kiməm? Hə? De görüm, mən kiməm?

K a m i l ə. Yoldaş Kərəmov.

K ə r ə m o v. Axırı ki, başa düşdün. Di get, xoş gəldin.

Kamilə kədərlə Şeydaya baxıb çıxır.

K ə r ə m o v (*Şeydaya*). Yoldaş pedaqoq! Hərçənd bu saat qəbul saatım deyil, ancaq mən, bürokrat deyilәm. Sözünü de, qısa.



Ş e y d a. Bir elə sözüm yoxdur. Bilmək istəyirdim, gəlib, ya yox?

K ə r ə m o v. Kim?

Ş e y d a. Ziynət. Bu gün Bakıdan gəlməlidir.

K ə r ə m o v. Mənə olma, görürsən ki, raykoma kağız yazdırıram.

Ş e y d a. Ziynətin gəlməyi barədə?

K ə r ə m o v. Yox, təkərlərin xarab olmağı barədə, mane olma.

Ş e y d a. Deməli, rayon partiya komitəsinə yazırsan ki, bizim arabalarımızın təkəri xarabdır?

K ə r ə m o v. Necə bəyəm? Yazmayım? Üstünü pərdələyim, gizlədim? Görün, siz Allah, Kərəmova nə təklif eləyir?

Ş e y d a. Mən onu demək istəyirəm ki, rayon partiya komitəsinə məktub yazmaqdansa, arabaları təmir eləmək lazımdır.

Salmanov və Mirzə Hüseyn onun sözlərini təsdiq edirlər.

K ə r ə m o v (*onlara baxır, hirsli-hirsli*). Dayanın görək, siz də hər dəlləyin əlinə saqqal verməyin. (*Şeydaya*) Bəri bax, atam, qardaşım, niyə qoymursan işimizi görək?

Ş e y d a. Mən bura Ziynəti xəbər almaq üçün gəlmişəm.

K ə r ə m o v. Ziynəti məndən niyə xəbər alırsan? Ziynət Bakıdan gəlir, mən nə eləyim? Əlimi döşümə qoyub hazır dayanım? Xanımı gözləyim, kolxoz da qalsın öz başına?

Ş e y d a. Başqa kolxozçular öz nümayəndələrini gül-çiçəklə qarşılayırlar.

K ə r ə m o v (*onun sözünü kəsir*). Bəri bax, yoldaş müəllim, sən burada köhnə qayda-qanunu təzədən şey eləmək istəyirsən? Nə idi onun adı? Arabaya oxşayan bir söz idi...

Ş e y d a. Bərpa.

K ə r ə m o v. Hə, hə, ondan eləmək istəyirsən? Tutmaz. Bir z. manlar vardı, dəmirçi molla Musa da kolxoz üzvü idi, elə maskala imışdı ki, arvad da gələndə ayağa dururdu. Sən onda yəqin heç şeydə də oxumurdun, nə idi onun adı, istiota oxşayan bir söz idi.

Ş e y d a. İnstitut?

K ə r ə m o v. Özüdür ki, var. Mən burada kolxoz təşkilatını elə alanda, sən heç o dediyin yerdə də oxumurdun. İndi gəlmisən bu boyda rəhbərə deyirsən ki, çıx yolun ağzında dayan, nə var, nə var, Ziynət gəlir. Ziynət nümayəndə gedib, çox gözəl, onu kim nümayəndə göndərib? Mən Kərəmov. Onu kim Staxanovçu eləyib? Mən Kərəmov.

O gərək gündə neçə dəfə mənim çəkmələrimdən öpsün... Salmanov, yaz görüm!

S a l m a n o v. Ağzınızdan çıxan qeyd olunur, yoldaş Kərəmov.

S u r x a y içəri girir.

S u r x a y. Qüvvət olsun.

K ə r ə m o v (*öz-özünə*). Xeyr, a... Bundan yaxa qurtarmaq çətin olacaq.

S u r x a y. Yoldaş müəllimə xüsusi salamlar! Sən də yəqin Ziynətin nigarançılığını çəkirsən, hə?

Ş e y d a. Gərək səhər gələ idi. Bilmirəm niyə gecikdi.

K ə r ə m o v. Balam, canım, gözüm, kolxoz idarəsi sizinçün vağzalzad deyil ki, yığılmısınız? Mirzə Hüseyn, mən sənə əmr eləməmişəm ki, buraya yaz yapışdır, işsiz daxil olmaq qadağandır?

M i r z ə H ü s e y n. Yazıb yapışdırmışdım, yoldaş Kərəmov, bax, bu Surxay yoldaş cırıb atdı.

K ə r ə m o v. Niyə? Surxayın nə ixtiyarı var heyətin qərarı olmamış kolxoz idarəsində elan cırıb ata?

S u r x a y. Bilirsiniz niyə cırdım, yoldaş Kərəmov? Əgər yazsanız ki, işsiz daxil olmaq qadağandır, onda gərək hamıdan qabaq sədr özü buraya girməyə, çünki məncə, bu kolxozda bir işsiz var, o da kolxoz sədridir.

K ə r ə m o v. Surxay, sənə əmr eləyirəm, bu dəqiqə kəs!

S u r x a y. Düz deyirəm, müəllim?

Ş e y d a. Tamamilə düzdür. Özü işləmədiyi bəs deyil, hələ başqalarına da mane olur.

K ə r ə m o v. Kəsin deyirəm sizə... Mənə, mənim öz kabinetimdə hücum çəkirsiniz? Baş-başa verib qruppa düzəltmisiniz? Salmanov! Qeyd eləyirsən, eləmirsən?

S a l m a n o v. Deyəsən, kağız çatışmayacaq...

K ə r ə m o v. Kağız çatışmır, köhnə protokolların künc-bucağına yaz. Mənim əleyhimə deyilən hər bir kəlmənin sorğu-sualı olacaq. Özbaşınalıq deyil ki!

Ş e y d a. Gedək, Surxay. Ziynəti tarlada, açıq havada qarşılasaq daha yaxşıdır.

S u r x a y. Gedək. Vaxt olar, Kərəmov yoldaş ilə bundan da səmimi söhbət eləyərik...

Çıxırlar.



M i r z ə H ü s e y n. Müşərrəf oldular? Yaxşı ki, bu səfər tez qurtardı.

K ə r ə m o v. Nə hədləri var? Qabaqlarındakı aslandır, axı. Bəs, necə? Görürlər ki, camaat burada iş görür, semiçka çırtlamır. Bu, sədrlikdir, masqara deyil. Hə, indi daha sakitlikdir, qoy dərindən fikirləşim. Elə bir təliqə yazmaq istəyirəm ki, mərkəzdə əldən-ələ gəzsin.

M i r z ə H ü s e y n. İcazə verin, gedim görüm, əməkgünlərini qeyd ediblərmi?

K ə r ə m o v. Get, mane olma.

M i r z ə H ü s e y n (*gedir. Sonra pəncərədən başını çıxarıb, tələsik xəbər verir*). Camaat bu tərəfə gəlir, qabaqlarında da Ziynət. (*Pəncərədən çəkilir*)

K ə r ə m o v. Yox, bu olmadı. Mənim idarəmi karvansaraya döndərdilər. Canım, dərindən fikirləşməyə şərait yoxdur ki!

Z i y n ə t, M e h r a l ı və bir neçə k o l x o z ç u içəri girirlər.

M e h r a l ı. Uçan bülbülümüzü tutub gətirdik. (*Çamadanı yerə qoyur*)

Z i y n ə t. Xoş gördük, yoldaşlar, ha yalvardım ki, a Mehralı dayı, sən zəhmət çəkmə, qoca kişisən...

M e h r a l ı (*onun sözünü kəsir*). Hə, onda çaşdın. Ortada qoca sözü olmayacaq.

Gülüşürlər.

Z i y n ə t. Siz necəsiniz, yoldaş Kərəmov?

K ə r ə m o v. Sazam. İndi get, bir az istirahət elə, sonra gəlib mənə Bakıda olub-keçənlər haqqında ətraflı məruzə elərsən.

Z i y n ə t. O məsələləri gərək ümumi kolxoz iclasında müzakirə eləyək.

K ə r ə m o v. O sonrakı işdir. Əvvəlcə mənə danış. Mənimlə razılaşdır, sonra kolxozçularla söhbət apar.

İ b r a h i m kişi tələsik gəlir.

İ b r a h i m k i ş i (*Ziynətlə görüşür*). Xoş gəlmisən, qızım, səni səhərdən gözləyirdik, niyə belə ləngidin?

Z i y n ə t. Maşın iki dəfə sındı. Yollarımız o qədər xarabdır ki, adam xəcalət çəkir.

K ə r ə m o v. Eybi yoxdur, qoy başım açılsın, o yolları elə düzəltdirəcəm ki, o başında yumurta qoysan, bu başında görünəcək. Bəs, necə?

İ b r a h i m k i ş i. Siz əvvəlcə kolxozdakı biabırçılıqların qabağını alın, sonra.

Z i y n ə t. Nə olubdur ki? Nə biabırçılıqdır?

M e h r a l ı. Nə biabırçılıq olacaq? Taxıllar yığılıb dağ kimi, daşıyan yoxdur. Maşınlar xarab, arabalar sınıq...

K ə r ə m o v. Yenə keçdilər tənqidə, göz açmağa qoymurlar ki... A kişi, a Mehralı, bu saat bu söhbətlərin işə heç dəxli yoxdur. İclas çağıraram, bir deyərsiniz, beş də cavabını alarsınız.

M e h r a l ı. Düzdür, bu cür nəticəsiz söhbətlərdənsə, qoy Ziynət bacı bizə yığıncaqdan danışsın.

T ə m r a z. Sənin danışığını, qızım, qəzetdə oxuduq, ürəyimiz fərəhlə doldu.

K ə r ə m o v. Çox gözəl çıxış eləyib, hələ bir fərəhlənirsiniz də? Mənim öyrətdiyim sözlərin heç birini deməyib. Burada kolxozun rəhbəri mənəm, gərək heç kəs mənim sözümdən bir addım qırağa çıxmaya. (*Ziynətə*) Mən burada sənə nə öyrətmişəm, sən gedib gör nə danışmısan? Tənqid yaxşı şeydir, amma gərək əvvəlcə rəhbərliklə razılaşdırasan, sonra.

M e h r a l ı. Demək, sən tənqidi döndərib ev toyuğu eləmək istəyirsən?

Hamı gülür.

K ə r ə m o v (*Mehralıya*). Bəri bax, yoldaş sıravi kolxozçu, böyük-kiçik yanında danışmağın qaydasını bil. (*Ziynətə*) Danış görək, Bakıda neyləmisən?

Z i y n ə t. Konfransdan sonra bizim kolxozun bəzi məsələlərini həll etmək üçün müəyyən idarələrə getdim. Əvvəlcə, dalda qaldığımız üçün danladılar, sonra da uzaq kənd olduğumuzu nəzərə alıb, bizim kolxoza əlavə iki maşın bağışladılar.

K ə r ə m o v. İmadin?

Z i y n ə t. Yox.

K ə r ə m o v. Zis?

Z i y n ə t. Yox, yük maşını.

K ə r ə m o v. Onda apar, qaytar dala. Mən yük maşınında gəzə bilmərəm.

Z i y n ə t. Onları sizin gəzməyiniz üçün yox, yük daşımaq üçün veriblər. Sonra da sizə mən bir şad xəbər vermək istəyirəm. Neçə ildir, Kərəmov əlləşirdi, ancaq bizim bu körpü məsələsini düzəldə bilmirdi.



Körpü olmadığından rayon mərkəzi ilə əlaqəmiz çətinləşirdi, yolumuz bir günlük uzaq düşürdü.

İ b r a h i m k i ş i. Bəs, necə oldu, düzəldi?

Z i y n ə t. Düzəldi. Smetaya baxdılar, təsdiq elədilər.

M e h r a l ı. Sağ ol, Ziynət, çox sağ ol, bilirsən bu körpü bizim əlimizdən necə tutacaq?

K ə r ə m o v. Düzdür, mən neçə ildir körpü düzəltmək üçün əlləşirdim, bir şey çıxmırdı, amma daha sənin kimi gözəl-göyçək qız hara, mən hara? Əlbəttə, sənincün körpü də salarlar, hələ dəmir yolu da çəkərlər.

M e h r a l ı. Canım, yekə kişisən, nə əttökən sözlər danışırsan?

T ə m r a z. Sədrimiz belə danışanda daha başqalarından nə gözləyək?

İ b r a h i m k i ş i. Bu cür sözlər eşidəndə adam bilmir, neyləsin?

K ə r ə m o v. Dayanın, dayanın, qarğa-quzğun kimi tökülməyin üstümə. Mən o mənada demirdim, sözümü fındıq kimi sındırıb, içindən ləpə çıxartmayın. Mən bu körpü məsələsinə çox sevindim. Sağ ol, Kərəmov ki, kolxozda bu cür Ziynətlər yetişdirmisən. Yaxşı, bəs, necə məsləhət görürsünüz, körpüyə kimin adını qoyaq?

M e h r a l ı. Körpüyə ad qoymazlar.

K ə r ə m o v. Qoyarlar. Sən mənə öyrətmə. Salmanov!

S a l m a n o v. Bəli, yoldaş Kərəmov.

K ə r ə m o v. Bu saat mənim əmrimi heyət üzvlərinə yetir. İclas çağıraram. İclasda gərək bu saat həll eləyəm, körpüyə kimin adı qoyulsun.

İ b r a h i m k i ş i. Körpü hələ tikilməyə başlanmayıb, adını fikirləşirsən.

Z i y n ə t. Heç elə iş olar, yoldaş Kərəmov? Heyət üzvləri bu saat çöldə, biçində, onları işdən ayırıb, iclas çağırmaq olar?

K ə r ə m o v. Bəli də, demək, kolxoz sədrinin kefi istədikdə iclas çağırmağa da ixtiyarı yoxdur? Bilirəm, niyə istəmirsiniz, qorxursunuz kolxozçular körpüyə Kərəmovun adını qoyalar? Heç nigaran qalmayın. Onlar qoysalar da, mən razı olmaram. Kərəmovun adı bir kənd körpüsünə sığışmaz. Yaxşı, daha qəbul saatım qurtardı. İndi icazə verin, dövlət işləri ilə məşğul olum. Salmanov, təkərlər barəsində rayon mərkəzinə yazdığımız kağız hazırdırmı?

S a l m a n o v. Kağız hazırdır, amma sözləri yazılmayıb.

K ə r ə m o v (*hirsli halda*). Ah, Salmanov, Salmanov...

Z i y n ə t. Ayıbdır, yoldaş Kərəmov, rayona təkərlər barədə yazmaq yaxşı deyil. Çağırın dəmirçi Musanı, təkərləri düzəltsin.

Kərəmov. O mənim işimdir. Onların borcudur bizim hər bir dərdimizə qulaq assınlar. Əgər, qulaq asmayacaqlarsa, daha niyə adlarını məsul işçi qoyub, hökumətdən məvacib alırlar?

Ziynət. Taxıllar çöldə qalıb, yağış altında çürüsün ki, kolxoz rayon mərkəzindən araba təkəri gözləyir? Bu, ziyançılıqdan başqa heç bir şey deyil.

Kərəmov. Necə? Sən mən Kərəmova ziyançı deyirsən? Salmanov, bu sözləri yaz, altından qol çəksin. Adə, mən, kolxoz sədri, ziyançı! Yaz, altından qol çəksin. Kişisənsə, qol çək, nə durmusan?

Mehralı. Yazarıq da, qol da çokərik, hələ bir az səbr elə.

Kərəmov. Sən bağla, səndən soruşan yoxdur.

Ziynət. Kərəmov, mən bu saat yol yorğunuyam, bu sözlərimi ümumi yığıncaqda bir də təkrar eləyərəm.

Kəromov. Hə, məni hədələyirsən? Qoymurlar da, qoymurlar sakit oturub iş görək. Ziyançı da özünüzsünüz, işi pozan da. Bəri bax, məni acıqlandırarsınız, səhərdən ömr verərəm ki, bütün "Şəfəq" kolxozu böyüklü-kiçikli işdən azad edilsin. Salmanov, yığışdır dəftərxananı, gedək ayrı yerə, bu şəraitdə mərkəzə kağız yazmaq olar? (*Çıxırlar*)

Mehralı. Get, eybi yoxdur. Sənin də mənəm-mənəm deməyinin ömrünə az qalıb.

İbrahim kişi. Ziynət, qızım, sən bu saat yoldan gəlmisən, istirahət elə, sonra doyunca söhbət eləyərik.

Ziynət. Danışmalı söz çoxdur. Biz işlərimizdə elə yeniliklər yaratmalı, elə əmək fədakarlığı göstərməliyik ki, kolxozumuz bu gözəl, bu şən həyata layiq bir kolxoz ola bilsin.

Təmraz. Kərəmov qoysa...

İbrahim kişi. Biz mübarizəni onun özündən başlamalıyıq.

Çöldən səs gəlir.

Mehralı. Bizi çağırırlar, gedək. Sağ ol, qızım, yığışıb bir yaxşı məsləhətləşərik.

Çıxmaq istədikdə Şeyda ilə rastlaşırlar.

Şeyda. Deyirlər, Ziynət gəlib. Bəs hanı?

Mehralı. Budur, buradadır...

Təmraz. Gedək, Mehralı, gedək, ləngimək olmaz.

Çıxırlar. Səhnədə Ziynət ilə Şeyda qalırlar.



Şeyda. Ziynət, xoş gəlmisiniz. Bəs, biz sizi yol ayrıcında gözləyirdik.

Ziynət. Xoş gördük, Şeyda müəllim! Mən sizin tapşırığınızı yerinə yetirdim.

Şeyda. Nə danışırsınız? Deməli, çap eləmək üçün söz verdilər?

Ziynət. Söz də verdilər, çap da elədilər. Budur, qəzeti gətirmişəm. (*Qəzeti ona verir*)

Şeyda (*qəzetə baxır*). Birinci şerimi siz çap elətdirdiniz, Ziynət! Heç bilmirəm sizə necə təşəkkür eləyim?

Ziynət. Təşəkkürü biz sizə eləməliyik. Bakıda hamıya deyirdim ki, bu şeri yazan şair bizim kəndin müəllimidir. Fəxr eləyirdim.

Surxay içəri girir.

Surxay. Ziynət! Kərəmov yolda məni ləngitdi, gecikdim. Gəl görüşək.

Ziynət. Xoş gördük, Surxay.

Görüşürlər.

Şeyda. Surxay, məni təbrik elə, şerim çap olunub.

Surxay. Hanı? (*Qəzetə baxır*) Hə, təbrik eləyirəm. Ürəkdən sevinirəm. Əlini ver. (*Ziynətə*) Ömrümdə birinci dəfə şair əli sıxıram.

Şeyda. Çox sağ ol. Yavaş, yavaş, bu cür sıxsan, bu axırıncı şerim olar. Gedim başqa yoldaşlara da göstərim. (*Çıxır*)

Ziynət. Necə də sevinir.

Surxay. Bəs, sevinməsin? Bakıda, mərkəzi qəzetdə şeri çap olunub. Şer yazmağı bacardığı üçün xoşbəxtdir. Heyf ki, mənim əlimdən gəlmir.

Ziynət. Sənin də əlindən cansız torpaqları canlandırmaq, boz çölləri məxmər kimi bəzəmək gəlir. Məncə, bizim sənətimiz də şairlik kimidir. Elə deyilmi?

Surxay. Deyəsən, Ziynət, Bakıya konfransa gedəndən sonra taxılçılığa eşqin daha da artıb?

Ziynət. Sən heç təsəvvür eləyə bilməzsən, Surxay, bizim alimlərimiz nə qədər maraqlı təcrübələr eləyirlər. Çoxbudaqlı sünbül... Soyuğa davam gətirən sünbül... Biz bu təcrübələrin yaxşı nəticə verməsi üçün gərək elmi təşkilatlarımıza kömək eləyək. Daha kor-koranə

yeri sürüb, toxum səpməyin vaxtı keçib. Get-gedə elə olacaq ki, hər bir kolxozçu öz sənətinin alimi olacaqdır.

S u r x a y. Bakıdan danış. Doyunca gəzə bildinmi? Teatrlara getdinmi?

Z i y n ə t. Vaxt az oldu, yalnız bir-iki tamaşa görə bildim. Öz-özümə söz vermişəm ki, payızda, işimiz az olanda mütləq bir də gedəm. Mənə yoldaşlıq edərsənmi?

S u r x a y. Sual çox yersizdir. Sənə mən ömrümün axırına kimi yoldaşlıq eləməyə hazıram. Bəs, bu cür təklifə sözün nədir? (*Sükut olur, Ziynət bir cavab vermir. Səhnə arxasından Kərəmovun səsi eşidilir*) Mənim bəxtim belədir, həmişə sənin lə söhbəti bişirib hazır eləyəndə, biri gəlib mane olur. Əsas sualıma cavab ala bilmirəm. (*Ziynət gülür*) Gülmə, Ziynət! Əvvəl-axır bu sualıma cavab verəcəksən.

K ə r ə m o v və S a l m a n o v içəri girirlər.

S a l m a n o v. Yenə buradadırlar, yoldaş Kərəmov!

K ə r ə m o v. İşləməyə imkan yoxdur ki! Kluba getdim, məşq elə-yirlər, teatr çıxardacaqlar. Məktəbə getdim, bir qarhaqur var ki, qulaq tutulur. Burada da belə. Sən öləsən, iş adamı üçün bu kolxozda yer yoxdur. Salmanov, yaz görüm.

S u r x a y. Biz gedirik, yoldaş Kərəmov, axşama kimi yazın, etiraz-ımız yoxdur.

K ə r ə m o v. Sən nəçisən ki, mənim sözümə etiraz eləyəsən? Ziynət, sabah konfransın gedişi haqqında mənə fikrini yazıb gətirərsən.

Z i y n ə t. Çoxlu təzə qəzet gətirmişəm, yoldaş Kərəmov, orada hamısı yazılıb, verərəm oxuyarsınız.

K ə r ə m o v. Sən öl, ocəb adamlara rast gəlmişəm? Ay qız, kolxoz sədrinin vaxtı var ki, qəzet oxusun? Yaz gətir, işə tikəcəyəm.

Z i y n ə t. Ona söz verə bilmərəm.

S u r x a y. Yox, yox, yazar, yoldaş Kərəmov, əlbəttə, yazar. Gedək, Ziynət. Bununla çox danışmağın mənası yoxdur.

**Surxayla Ziynət gedirlər. M i r z ə H ü s e y n başıalovlu içəri girir.**

M i r z ə H ü s e y n. Yoldaş sədr! Cəbhədən son xəbər.

K ə r ə m o v. Hesabdar Mirzə Hüseyn, tez danış görək, nə xəbər var?

M i r z ə H ü s e y n. Göy buludlanır, taxıllar təhlükədədir, təkər-lərin təmiri sürətləndirilməlidir.



S a l m a n o v. Hə, bu mühüm xəbərdir. Təkərləri o vəziyyətdə qoymaq olmaz.

K ə r ə m o v. Cəhənnəmə ki!.. Daha mənim başımı dəng elədiniz. Təkərləri tapşırın dəmirçi Musaya.

M i r z ə H ü s e y n. Sizin bu əmrinizi təbrik eləmək lazımdır, yoldaş Kərəmov.

K ə r ə m o v. Salmanov, indi ki, belədir, protokol yaz. (*Gəzib diktə edir*) Arabaların təkərləri çox oyan-buyana gedib-gəldiyindən sınıb haldan düşmüşdür. Ona görə də...

İşıq sönür.

## İKİNCİ ŞƏKİL

Kənd meydançası. Sağ tərəfdə dəmirçi Musanın emalatxanası. Emalatxana bağlıdır. M e h r a l ı onun qarşısında oturub çubuq çəkir. Ş i r ə l i k i ş i gəlir.

Ş i r ə l i. Salam, Mehralı! Yenə paroxod kimi nə tüstüladirsən? Uzaqdan baxanda adama elə gəlir ki, Musanın dəmirçixanasına od düşüb.

Görüşürlər.

M e h r a l ı. Hər gün işdən qayıdanda burada bir az nəfəsimi dər-məmiş, Musa ilə kəlmə danışmamış evə getmirəm.

Ş i r ə l i. Bəs, Musa hanı?

M e h r a l ı. Yoqin evə gedib. Gəl əyləş!

Ş i r ə l i. Gedirəm, bir az kitaba-dəftərə baxım. Bu axşam dərsi-miz var, axı.

M e h r a l ı (*cəld ayağa qalxır*). Lap mənim yadımdan çıxmışdı ha. Vaxtım olmayıb, heç dərsin üzünə də baxmamışam. Gedək.

Ş i r ə l i. Heyf, Musanı görmədim.

M e h r a l ı. Musa ilə nə işin var ki?

Ş i r ə l i. Onu da kursa gətirmək istəyirəm. Məni keçən iclasda təb-liğatçı seçmədilər?

M e h r a l ı. Musa çox tərs adamdır, son onun dilini bilməzsən. Qoy Surxay bu işlə məşğul olsun. Mədəni-maarif işlərimizə rəhbərlik eləyən odur. Gedək.

S e y d a içəri girir.

Ş e y d a. Gənc tələbələrə salam.

M e h r a l ı. Əleykəssalam, yoldaş müəllim! Sənə zəhmət verib bir söz soruşmaq istəyirik. Bu gün dərsimiz olacaq, ya yox?

Ş e y d a. Əlbəttə, olacaq. Necə bəyəm, Mehralı dayı? İstəyirsiniz olmasın?

M e h r a l ı. Yox, oğlum, ehtiyatdan soruşuram ki, yaraqlanıb gələk.

Ş e y d a. Siz yaraqlanın. Dərsimiz olacaq. Bu gün, Mehralı dayı, birinci sizdən soruşacağam.

Ş i r ə l i. Gedək, Mehralı. Bayaqdan deyirdin ki, heç üzünə də baxmamışam.

M e h r a l ı. Yalan niyə deyirsən, a kişi? Müəllimin yanında məni qızartmasana! Elə bilirəm ki, tutuquşu kimi, əzbər. (*Gedə-gedə*) Yekə kişisən, adam da müəllimin yanında elə söz danışar? (*Çıxanda Surxay ilə rastlaşırlar*)

S u r x a y. Salam, a kişilər, bir ayaq saxlayın... Hara belə?

M e h r a l ı. Salam, salam, Surxay, kefin-halın? Bura bax...

Ş i r ə l i. Mehralı, axşam dərs var, söhbətə başlama.

M e h r a l ı. Eh... lap yadımdan çıxmışdı ha... Gedək... Xudahafiz, Surxay, elm, adamı ürəkdən söhbət eləməyə də qoymur...

Mehralı ilə Şirəli çıxırlar.

S u r x a y (*Şeydaya əl verir*). Dünən axşam haradaydın?

Ş e y d a. Bir balaca işim oldu. Necə? Axtarmısan?

S u r x a y. Axtarmısan da sözdür? Bütün kəndi gəzdim, tapmadım.

Ş e y d a. Mən dünən axşam Kamiləgildə idim.

S u r x a y. Kamiləgildə? Deyəsən, onunla xüsusi məşğul olursan, hə, yoldaş müəllim?

Ş e y d a. Daha oralara əl atma, Surxay! Kərəmov imkan versə, məşğul olaram. Bir vərəq oxumağa qoymadı. Bilirsən, nə qədər danışdı.

S u r x a y. Demək, siz sevgini kitab kimi vərəq-vərəq oxuyursunuz?

Ş e y d a. Hələ yox, məsələ çiydir, bişməyib.

S u r x a y. Yadındadır, uşaqlıqda oxuyardıq ha: noxudu çiydir bişməyib hələ, ocaqdan yerə düşməyib hələ. Demək, sizin işiniz də belədir, hə?

Ş e y d a. Son dünən axşam məni bu cür şerlər oxumaq üçün axtarırdın?

S u r x a y. Yox, mən o dərəcəyə çatmamışam ki, şairə şer oxuyum. Divar qəzetinin materiallarını sənə çatdırmaq lazım idi. Bu nömrəni



gərək yaxşı buraxasan, qoy bütün cavanlar hiss eləsinlər ki, redaktor həm müəllimdir, həm də şair.

Ş e y d a. İndi dərnəyə gedirəm, sonra evdə olacağam. Materialları çatdırarsan. Divar qəzetinin bütün məqalələrini kolxozun işinə həsr eləyəcəyəm. (*Yavaşdan*) "Kommunist" qəzetinə bir məqalə də göndərmişəm. Kərəmovu bərk tənqid eləmişəm.

S u r x a y. Əcəb eləmisən. Amma, orası var ki, məqalə çıxandan sonra Kamilədən əlini üz.

Ş e y d a. Möhkəm sevgi olandan sonra heç kəs mane ola bilməz. Bir şeir var, deyir ki: "Gər cəzbeyi-eşq olsa gətirrəm, necə gəlməz". Gedək.

Şeyda çıxmağa hazırlaşır. Surxay da onunla getmək istəyir, ancaq bu zaman Z i y n ə t səhnəyə gəlir. Surxay onu görüb geri qayıdır.

S u r x a y. Yox, yox, sən get, mən getməli olmadım.

Ş e y d a. Nə üçün?

S u r x a y. Böyük bir qüvvə məni getməyə qoymadı.

Ş e y d a. Hə, başa düşdüm. Yaxşı, sən qal... (*Gedir*)

Z i y n ə t. Surxay, sənsən? Burada neyləyirsən? Taxıllardan xəbərin olmadı? Arabalar işə düşdümü?

S u r x a y. Haradan bilim? Ziynət can! Mənim öz arabam sınıb qalıb yolun ortasında, kömək eləyib qaldıran yoxdur.

Z i y n ə t. Onun heç eybi yoxdur, məni bu saat elə xırda məsələlər maraqlandırmır.

S u r x a y. Çox sağ ol, deməli, mən sənincün xırda məsələyəm?

Z i y n ə t. Məgər, sən özündən danışırdın?

S u r x a y. Əlbəttə. Arabam sınıb deyəndə, özümə işarə eləyirəm.

Z i y n ə t. Özünü sınıq arabaya oxşadırsan? Əcəb işarədir.

S u r x a y. Sınıq araba, yəni, sınıq ürək. Mən çox dərin məsələlərə əl atıram, Ziynət.

Z i y n ə t. O cür dərinlikləri mən başa düşmürəm, savadım azdır.

S u r x a y. Savadın azdır, gəl mənim kursuma, səni savadlandırım. Nə vaxtacan bu cür geridə qalacaqsan?

Z i y n ə t. Ciddi ol, Surxay!

S u r x a y. Nə istəyirsən, olum, Ziynət can! Ancaq icazə ver sənin lə işarəsiz danışım, ürək sözümü birdəfəlik açıb deyim. Sən də qəti bir cavab ver, ya oyanlıq olsun, ya buyanlıq. Daha mənim səbrim qalmayıb.

Z i y n ə t. Nə demək istədiyini başa düşmürəm.

S u r x a y. Bu saat səni iki kəlmə ilə başa salım.

Z i y n ə t. Bu saat mənim vaxtım yoxdur. Kamiləni axtarıram, gələndən sonra görməmişəm. Onu götürüb gələcəyəm kluba. Sən də gəl, orada danışarıq.

Z a l x a içəri girir.

Z a l x a. Qəribədir, bunlar da burda xosunlaşırlar. Bu gün kənd dönüb olub pıçıpıçıxana, hər kolun dalından bir cüt çıxır.

Z i y n ə t. Zalxa xala, danışığınıza fikir versəniz pis olmaz. (*Gedir*)

Z a l x a. Buna bax ha, hələ forsuna da dəyir! Kolxoz dönüb xaraba dəyirmana, bunlar burada başlayıblar, pıçhapıç...

S u r x a y. Zalxa xala, siz özünüz heyətin üzvüsünüz...

Z a l x a. Mən heyətin üzvüyəm, siz də briqadirsiniz. Orada-burada bir-birinizin qulağına söz deməkdənsə, işinizi təşkil eləyin.

S u r x a y. Düz sözə nə deyim. Onda mən getdim. (*Getmək istəyir*)

Z a l x a. Dayan, əvvəlcə bir də görüm, məni niyə kursa yazmamısan? Yaraşmıram, yoxsa, xoşuna gəlmirəm?

S u r x a y. Ay arvad, daha niyə çığırırsınız, istəyirsiniz, yazım.

Z a l x a. İstəyirsiniz nədir? Harada siyahı tutdular, başda gərək mənim adım olsun. Bunu sən özün öz həvəsinlə başa düşürsən, yoxsa, mən başa salım?

S u r x a y. Başa düşürəm, bu saat yazım. (*Cibindən kağız çıxarır*) Zalxa kim qızı?

Z a l x a. Gorbagor qızı. Gorbagor vaxtında məni oxutsaydı, indi sənin kimilərə möhtac qalmazdım! Yaz!

S u r x a y. Yazdım.

Z a l x a. Nə yazdın? Oxu görüm.

S u r x a y. Savad kursuna yazılanlar: birinci Zalxa Gorbagor qızı. Özünüz dediniz, mən də yazdım.

Z a l x a. Hə, gorbagor sənin Kərəmovundur. Poz onu.

S u r x a y. Pozdum. Bəs, atanızın adı nədir? Canım üçün yadımdan çıxıb.

Z a l x a. Çıxar da... Növrəstələr əlindən səndə baş qalıb ki, mənim atamın da adı onun içində olsun?

S u r x a y. Zalxa xala, sizin əlinizdən bu kənddən qaçım? Ay arvad, nə üçün bu gözəl həyatı mənim başıma dar eləmisiniz?



Z a l x a. Hələ bu harasıdır? Bu kolxoz qaydasına düşməyincə rahat duran deyiləm. Sizə mən bir toy tutacağam ki, ananızdan əmdiyiniz süd burnunuzdan qaynaya-qaynaya tökülsün. Bəs, Kərəmov haradadır?

S u r x a y. Mən nə bilim? Kərəmovu güdmürəm ki!

Z a l x a. Onu axtarmağa gedirəm. Gərək başına bir oyun açım, Əsli Kərəmi əzbərdən oxusun. (*Gedir*)

Dəmirçi M u s a evindən çıxıb dükana sarı gedir. Surxay getmək istədikdə, onu görüb dayanır.

S u r x a y. Musa dayı, atanızın adı nədir?

M u s a. Mənim atamın adı sənin nəyinə lazımdır, övladım.

S u r x a y. Sizi savad kursuna yazıram. Adınızı qeyd eləmişəm, amma sağ tərəfi boş qalıb. Təcili surətdə atanızın adını bilmək lazımdır.

M u s a. Yazılmıram və atamın da adını deməyəcəyəm.

S u r x a y. Yaxşı kursdur, Musa dayı, Şeyda müəllim dərs deyir. Kəmsavad kolxozçuların hamısı yazılıb.

M u s a. Mən yazılmıram.

S u r x a y. Axı, niyə? Bir məni başa salın görüm, nə üçün yazılmaq istəmirsiniz? Kolxoza girmirsiniz, savad kursuna yazılmırsınız, kolxozun verdiyi sifarişləri qəbul eləmirsiniz. Açıq deyin, görək, fikriniz nədir?

M u s a. Çəkil gözlərimin səkisindən. Sənə elə tərs nəzər ataram ki, əriyib muma dönərsən. Yazılmıram, dedim, qurtardı.

S u r x a y. Hirslənməyin, a kişi, söz məsləhətdən keçər. Başqaları oxuyur, savadlanır...

M u s a. Başqalarının mənə dəxli yoxdur. Mən birdəfəlik özümə söz vermişəm ki, bu kənddə heç bir işə qarışmayacağam.

S u r x a y. Nə üçün? Bir məni də başa salın.

M u s a. Sən onu başa düşməzsən. Çünki tarixdən xəbərin yoxdur. Bu camaatın dərdinə hamıdan çox mən qalırdım. Birinci mən özüm dedim ki, gəlin kolxoz təşkil eləyək. Yığıldıq, məsləhətləşdik... Elə bu vaxt Kərəmovu rayonda işdən götürüb göndərdilər kəndə. Gələn kimi də mənimlə kəllə-kəlləyə gəldi, üstümə böhtan atdı, məni molla adlandırdı, nə bilim, nə həngamə çıxartdı... Hə, mən də çəkilib durdum bir quraqda. Qurtardı. Kərəmov olan yerə Musanın ayağı dəyməz. Mən bu saat ancaq dünya üzündə bir nəfərin dərdini, həsrətini çəkirəm.

S u r x a y. Bəs, o bir nəfər kimdir?

M u s a. Sən onu başa düşməzsən, çünki cavan beyni hələ o cür dərin məsələləri dərk eləyə bilməz.

S u r x a y. Bilməz, bilməz, mənim daha ayrı sözüm yoxdur. Elmi söhbətimiz qurtardı. Deməli, yazılmırsınız?

M u s a. Sözü bir dəfə deyərlər.

S u r x a y. Çox gözəl, demək dəftərdə sizin adınızın qabağında belə bir işarə qoymaq lazımdır.

M u s a (*kağıza təəccüblə baxır*). O nədir?

S u r x a y. Sual işarəsi.

Z i y n ə t və K a m i l ə gəlirlər.

Z i y n ə t. Surxay, sən bayaqdan burada neyləyirsən? Bəs, kluba getmirsən?

S u r x a y. Qızlar əmr eləyəndən sonra ölümə də gedərəm.

K a m i l ə. Şeyda haradadır?

S u r x a y. Bura bax ey, Kamilə bacı, siz nə çox Şeydanı xəbər alırsınız?

K a m i l ə. Mən ondan kitab almaq istəyirəm.

S u r x a y. Maraqlıdır, siz bu kitabları nə vaxt oxuyub qurtaracaqsınız?

Z i y n ə t. Yaxşı, qızı utandırma. Şeyda müəllimi də tap, gəl kluba.

Ziynətlə Kamilə gedirlər.

S u r x a y. Musa dayı, salamat qal, mən getdim.

M u s a (*halsız divara söykənir*). Dayan, getmə, yaxın gəl, mənə kömək elə.

S u r x a y (*onun qolundan tutur*). Nə oldu, Musa dayı? Ürəyiniz xarab oldu, nədir?

M u s a. Mən insanların ən bədbəxtiyəm, Surxay. (*Yavaşdan*) İki saniyə bundan qabaq səninlə söhbət eləyən qızın ismi nədir?

S u r x a y. Hansını deyirsiniz, Musa dayı, onlar bir cüt idilər.

M u s a. Mənim gözlərim yalnız birini gördü. O kimdir?

S u r x a y. Kərəmovun qardaşı qızı, kolxozun makinaçısı Kamilə.

M u s a. Sükut! Onu soruşmuram, o biri kim idi?

S u r x a y (*öz-özünə*). Aha, deyəsən, şərik çıxdı. (*Bərkdən*) Onun adı Ziynətdir.

M u s a (*öz-özünə*). Ziynət, Ziynət! Haradasan? Sən indi haradasan?



S u r x a y. Mən yerini bilirəm, gedim çağırım?

M u s a. Yox, dayan dedim, qurtardı. O səni hara çağırırdı?

S u r x a y. Heç, elə-belə söz soruşurdu.

M u s a. Nə soruşurdu?

S u r x a y. Deyirdi, kluba gedirik, sən də gəl.

M u s a. Orada nə var?

S u r x a y. Savad kursu.

M u s a. O da kursa gedir?

S u r x a y. Gedir, bəs, necə?

M u s a. Bunu mənə bayaqdan niyə demirsən! Razıyam, məni də o kursa yaz.

S u r x a y. Ay sağ ol. Atanızın adını təcili deyin.

M u s a. Atamı bura qarışdırma, yaz dəmirçi Musa. Qurtardı.

S u r x a y. Lap vaxtında qurtardı. Yazdım. İcazə verin, gedim. Qızların gözləri yoldadır, mənsiz bir dəqiqə dayana bilmirlər.

M u s a. Yox, dayan, dərdimə qulaq as. Sirrimi yalnız sənə açıram. Düz on beş ildir ki, bir canlar alan afət mənim ürəyimi qıfıllayıb, açarını da özü ilə aparıb.

S u r x a y. Təzə açar düzəlt!

M u s a. Sükut. Hələ mətləb uzundur, axırına qulaq as.

S u r x a y (*öz-özünə*). Evim yıxıldı. Bu keçdi tərcümeyi-halını danışmağa.

M u s a. O zaman mən bir qız sevirdim ki, həyata zinət, gəncliyə zinət, eşqə, məhəbbətə zinət idi.

S u r x a y. Adı da Ziynət idi?

M u s a. Adı adına oxşayırdı, özü özünə...

S u r x a y. Deməli, bütün ölçüləri düz gəlir?

M u s a. Sükut! Sözümə qulaq as. On beş il bundan qabaq mən onu itirdim. O zamanlar kənd hələ köhnə paltarını atmamışdı, qolçomaq canavar kimi idi. O, gül kimi soldu. Mən kasıb bir dəmirçi ona heç bir kömək edə bilmədim. Mənim ürəyim də onunla bərabər soldu. İndi...

S u r x a y. Çox gözəl, keçin indiyə...

M u s a. İndi... Bu Ziynət, elə bil, onun təkrarıdır. Köhnə eşq mənim ürəyimdə təzədən qaynamağa başlayıb, Surxay! Başa düşürsənmi?!

S u r x a y. Çox gözəl başa düşürəm. Köhnə eşq, köhnə şərab kimi çox tünd olur.

M u s a. Qulaq as, Surxay, gecələr yata bilmirəm, gündüzlər işləyə bilmirəm. Onun o gül sifəti gəlib gözümün qabağında dayanır. Axı, sən özün söylə, onu kim sevməyə bilər?

S u r x a y. Qəribə işə düşmüsünüz, Musa dayı.

M u s a. Bir kəlmə söz de, ürəyimə təsəlli olsun.

S u r x a y. Nə deyim? Söz tapıram ki?

M u s a. Onun da məni sevəcəyinə ümid edə bilərəmmi?

S u r x a y. Bir az gec başlamısınız, Musa dayı. Bu görkəmlə, bu saqqalla ağlım bir şey kəsmir.

M u s a. Sükut! Bağla söz körüyünün ağzını, mən təmiz məhəbbətdən danışıram, ağılsız cavan! Təmiz məhəbbətin qabağında görkəmin, saqqalın nə mənası var?

S u r x a y. Sizdə ayrı aləm varmış, Musa dayı!

M u s a. Ancaq bu söhbətlər öz aramızda: bir sən bilirsən, bir mən. Bir də onun özünə deyərsən, vəssalam, qurtardı.

S u r x a y. Arxayın ol! İndi mən gedə bilərəm?

M u s a. Get, tez bir xəbər gətir.

S u r x a y. Kimdən?

M u s a. Kimdən? O yarı-mehribandan, gülü-reyhandan, gözləri ceyrandan.

S u r x a y. O mənim gözlərim üstə. Xudahafiz! (*Gedir*)

M u s a (*öz-özünə zümzümə eləyir*).

Başıma vursan çəkic, zindanın ollam mən sənin.
Başına hər gün dönüb, qurbanın ollam mən sənin.

S a l m a n o v və M i r z ə H ü s e y n gəlirlər.

M i r z ə H ü s e y n. Salaməlcyküm, Musa dayı.

M u s a. Mən yenə hansı insan övladının səsini eşidirəm?

S a l m a n o v. İnsan övladının yox, Mirzə Hüseynin səsini eşidirsən, Musa dayı.

M u s a. Ay əleyna-vəəleykümüssin-vəllam.

M i r z ə H ü s e y n. Vəllam, vollam, Musa dayı. Sənə bir işimiz düşüb.

M u s a. Hamı bilir ki, mənim əlimdən iş qurtarmaz. Deyin, canını alım.

M i r z ə H ü s e y n. Yoldaş Salmanov bu saat ərz elər.

S a l m a n o v. İşimiz çox təcilidir, Musa dayı.



M u s a. Bir məsəl var, deyərlər ki, əttəənni minəlrəhman, eləcəleyi minəlşeytan.

S a l m a n o v (*Mirzə Hüseynə*). Nə deyir?

M i r z ə H ü s e y n (*yavaşdan*). Qurandan sitat gətirir.

S a l m a n o v. Musa dayı, səhvən özümlə lüğət götürməmişəm. Bu dediklərinin mənası nədir?

M u s a. Yəni, tələsmək şeytan işidir.

M i r z ə H ü s e y n. İndi tərsinədir. Musa dayı, insanlar tələsməkdə o qədər məharət qazanıblar ki, şeytan özü barmağını ağzına qoyub tamaşa eləyir.

M u s a. Onu bilmirəm, çünki şeytanlarla sizin əlaqəniz var, mənim yoxdur. Sözünüzü deyin.

S a l m a n o v. Musa dayı, bizim kolxozun arabalarının təkərlərini təmir eləmək lazımdır. Taxıllar çöldə qalıb, maşınlar çatışdıra bilmir.

M u s a. Əlqanisətin müstəqrizələrəzin.

S a l m a n o v. Nə dedi?

M i r z ə H ü s e y n. Deyəsən, istiqrazdan danışır.

S a l m a n o v. Yox, deyəsən, rezindən düzəltməyi məsləhət görür. Nə buyurdunuz, Musa dayı?

M u s a. İşiniz düzəlmədi. Kolxozdan sifariş qəbul olunmur.

M i r z ə H ü s e y n. Nə üçün? Kolxozla düşmənçilik eləyirsən?

S a l m a n o v. Bu cür sözü bir dedin, bir də demə... Axırı pis olar.

M u s a. Dedim, qurtardı. Siz yox, lap böyüyünüz Kərəmov da gəlsə, yenə mən sözümü geri götürmərəm. Kolxozdan sifariş qəbul olunmur. Vəssalam.

K ə r ə m o v gəlir.

M i r z ə H ü s e y n. Rədd eləyir, yoldaş Kərəmov.

S a l m a n o v. Deyir, kolxozdan iş götürmürəm.

K ə r ə m o v. Kolxozun sifarişini qəbul eləməyən sizsiniz, yoldaş molla Musa?

M u s a. Mən sənin lə yoldaşlıq eləmə mişəm, o adı da mənə vermə.

K ə r ə m o v. Demək, sən yoldaş sözünün əleyhinəsən? Salmanov!

S a l m a n o v. Buyur, yoldaş Kərəmov.

K ə r ə m o v. Yaz, altından qol çəksin.

M u s a. Çəkil gözlərimin səkisindən.

K ə r ə m o v. Sənin bizim işlərimizi qəbul eləməməyə ixtiyarın yoxdur.

M u s a. Sənin də mənim üstümə çığırmağa ixtiyarın yoxdur. Mən sənin sədr olduğun kolxozun üzvü deyiləm, işini də görməyəcəyəm.

K ə r ə m o v. Görəcəksən!

M u s a. Görməyəcəyəm!

K ə r ə m o v. Səni bu işə zor ilə məcbur eləyərəm.

M u s a. Mənə zor eləyən adam hələ anadan olmayıb.

Səs-küyə kolxozçular yığışırlar.

M e h r a l ı. Musa, inad eləmə.

Ş i r ə l i. Sən bu işin ustasısan, rədd eləmə.

M u s a (*Kərəmovu göstərir*). Bu olan yerdə mən yoxam. Dedim, qurtardı.

K ə r ə m o v. Salmanov, yaz! Bu saat mən sənə bildirərəm. Düz mərkəzə xəbər verəcəyəm.

M u s a. Çəkil o yana, mənim üstümə kölgə salma! Mən...

S u r x a y və Z i y n ə t içəri girir. Musa onları görüb özünü itirir.

S u r x a y. Bu nə yığıncaqdır? Nə olub?

Z i y n ə t. Yoldaş Kərəmov, arabalar düzəldi?

K ə r ə m o v. Yox, dəmirçi molla Musa, bir təktəsərrüfatçı kimi kolxozun işlərini pozmaq üçün sifarişləri qəbul eləmək istəmir.

M i r z ə H ü s e y n. Qəti boynundan atır.

S a l m a n o v. Özü də hədərən-pədərən danışır.

Z i y n ə t. Ola bilməz, Musa dayı, doğrudurmu ki, kolxozun sifarişlərini qəbul eləmək istəmirsiniz?

Musa özünü itirmişdir, dinmir.

S u r x a y. Musa dayı, nə olub sizə?

Z i y n ə t. Bəlkə bizimlə danışmaq da istəmirsiniz, ay Musa dayı?

M u s a. Can, can ağrın alım, nə buyurursan?

Z i y n o t. Kolxoza kömək eləməkdən boyun qaçırırsınız?

M u s a. Nə danışırsan, gülüm? Sənin bütün tapşırıqlarını yerinə yetirməyə hazıram.

K ə r ə m o v. Hazırsan?



M u s a (*Kərəmova*). Sən çəkil gözlərimin səkisindən. (*Ziynətə*) Buyur! Əmr səndən, ifası məndən.

Z i y n ə t. Sağ olun, Musa dayı. Siz ki, mənim sözümdən çıxmadınız, sağ olun.

K ə r ə m o v. Salmanov, protokol bağla. Dəmirçi Musa təkərləri üç günə təhvil verməlidir.

M u s a. Təkərlər bir günə hazır olacaq. Çəkilin kənara, mən işə başlayıram.

P ə r d ə

## İKİNCİ PƏRDƏ

### ÜÇÜNCÜ ŞƏKİL

Birinci şəklin dekorasiyası. K a m i l ə makinada yazır. Ş e y d a stolun üstünə böyük bir kağız açıb divar qəzeti düzəldir. Uzaqdan traktor səsi, kolxozçuların haray-hurayı eşidilir.

Ş e y d a (*yaza-yaza öz-özünə deyir*). Normanı... normanı üç yüz faiz... üç yüz faiz həyata keçirmişdir. Ancaq... rəhbərlik... xüsusən sədr... yaramaz işlədiyindən...

K a m i l ə (*əlini saxlayır*). Yoldaş müəllim, mən bayaqdan rica eləyirəm ki, yazdığınızı ürəyinizdə təkrar eləyin. Mənə mane olursunuz. Belə olmaz. Çaşıb arvad əvəzinə kişi yazdım.

Ş e y d a. Onun heç fərqi yoxdur. İkisi də eyni hüquqa malikdir. Ancaq, Kamilə can, hirslənməyin, mən istəyirəm, bu nömrədəki məqalələrin hamısı dərin olsun, mənalı olsun. Odur ki, hər cümləni ölçüb-biçməmiş, götür-qoy eləməmiş yazmıram.

K a m i l ə. Xahiş eləyirəm tez yazıb qurtarın. Bilirsiniz nə qədər işim var?.. Əmim gündə neçə protokol yazdırır, hamısını da gərək mən makinada çap eləyib, işə tikəm.

Ş e y d a. O protokolların barəsində bizim divar qəzetinə məqalə gəlib, budur, müxbir onların nə qədər mənasız olduğunu qeyd eləyir.

K a m i l ə. Amma əmim deyir ki, bu protokollar tarix yazanlar üçün lazım olacaq. Çox qiymətli vəsiqələrdir.

Ş e y d a. Vaxtınızı boş yerə sərf eləməyin, Kamilə can! Ondansa, gəlin mənə kömək eləyin, siz yanımda olanda mən özümü çox yaxşı hiss eləyirəm.

K a m i l ə. Mane olmayın, işim çoxdur. Bilmirəm niyə o cür geniş məktəb binasını qoyub burada işləyirsiniz?

Ş e y d a. Çünki bu otaqda məni bir qüvvə özünə cəzb edir.

K a m i l ə. Müəllimə yaraşmayan sözlər danışırsınız.

Ş e y d a. Niyə? Müəllimin qəlbi yoxdur, sevə bilməz? Bilirsiniz nə var? Kamilə, "mus-mus" deyincə birkərəlik Mustafa deyək, qurtarıb getsin. Açıq deyəcəyəm. Mən sizi sevirəm.

K a m i l ə (*hirslə ayağa qalxır*). Şeyda, kifayətdir. Bu dərəcədə təhqir olmaz.

Ş e y d a. Niyə?.. Sevmək təhqirdir? Əgər sevgi təhqir olsaydı, onda gərək Leyli Məcnunu məhkəməyə verəydi.

K a m i l ə. Nə mən Leyliyəm, nə də siz Məcnun.

Ş e y d a. Daha yaxşı, mənim işim asanlaşır. İbn-Səlam yoxdur ki, qabağına Nofəli çıxardım. Kərəmov artıq-əskik danışar, göz açıb yumunca sizi qoltuğuma vurub ilim-ilim itərəm.

K a m i l ə (*gülür*). Bəlkə mən özüm razı olmadım, onda necə?

Ş e y d a. Onda mən məsələni qoyaram kolxozun ümumi iclasına, sübut eləyərəm ki, Kamilə xanım öz hərəkətləri ilə məktəbdə dərslərin normal getməsinə mane olur.

K a m i l ə. Yaxşısı budur, gedim. Məni işləməyə qoymayacaqsınız...

Ş e y d a. Dayanın. Qulaq asın, görün, sizin üçün necə şeir yazmışam. (*Oxuyur*)

Ey sevgilim, dinlə ah-naləmi,
Mən sizə lap can-dildən məftunam.
Eşqdən yanıram pərvanə kimi,
Qəribəm, Kərəməm, paçti Məcnunam.

K a m i l ə (*gülür*). Siz nə vaxt mənə ciddi bir şeir oxuyacaqsınız?

Ş e y d a. Siz mənə ciddi cavab verəndə. Bəlkə yaramaz, Kamilə. Mən sevgi haqqında danışmaqdan da, şeir yazmaqdan da yorulmuşam. Ancaq sizdən qəti cavab ala bilmirəm ki, bilmirəm. (*Ona yaxınlaşmaq istəyir*)

K a m i l ə. Şeyda, məndən uzaqlaşın, özünüz bilirsiniz ki, əmim sizinlə danışmağıma razı deyil. Gəlib görsə, o qədər danlar ki...

Ş e y d a. Danlasın, ondan qorxan yoxdur ki, Kamilə, icazə verin qulağınıza iki kəlmə söz deyim...

K a m i l ə. Şeyda yaxın gəlməyin...

Gülərək stolun ətrafına hərlənirlər. Bu anda M i r z ə H ü s e y n içəri girir. Kamilə utanıb çıxır.



M i r z ə H ü s e y n. Mübarək olsun, yoldaş müəllim!

Ş e y d a. Mirzə Hüseyn, sən ki, əməkgünləri yazmağa getmişdin, bəs niyə belə tez qayıtdın?

M i r z ə H ü s e y n. Min dəfə üzr istəyirəm, tez qayıtdım və özüm də bilirəm ki, yaxşı iş görmədim. Rəhmətliyin balası, belə işin olanda papaq elə, biz də bilək ki, semafor bağlıdır. Yoxsa, mən nə bilim, sənin içəridə leksiyan var?

Ş e y d a. Mirzə Hüseyn, bu nə cür danışıqdır? Mənə böhtan atırsan, nədir?

M i r z ə H ü s e y n. Xeyr, mənim sizə yerdən göyə qədər hörmətim var. Bir də, oğul, sən gərək məndən çəkinməyəsən. Mən rindəm, mən gövhərin qədrini bilənlərdənəm. Deyir, qədri-zər zərgərşünasəd, qədri gövhər gövhəri.

Ş e y d a. Necə? Necə?

M i r z ə H ü s e y n. Bəs... qədri-zər zərgərşünasəd, qədri gövhər gövhəri.

Ş e y d a. Sən bunu haradan bilirsən, ey zinanın cövhəri! Bağışla ha, Mirzə Hüseyn, şairin ki, təbi gəldi, gərək desin, incimə... Kolxozda nə yenilik var?

M i r z ə H ü s e y n. Yeniliklərin hamısı köhnəlib, təzəsi çıxmayıb.

Ş e y d a. Sən özün də köhnəlmisən. Sağ ol, mən bir az tələsirəm.

Şeyda gedir. Mirzə Hüseyn onun arxasınca diqqətlə baxır, sonra narazı halda öz stoluna yaxınlaşır. S a l m a n o v içəri girir.

S a l m a n o v. Təksən? Dərə xəlvət – tülkü bəy.

M i r z ə H ü s e y n. Təzə xəbər.

S a l m a n o v. Cırmaxla görüm.

M i r z ə H ü s e y n. Müəllim, Kərəmovun qardaşı qızı Kamiləni öpəndə üstünə gəlib çıxdım.

S a l m a n o v. Mən ölüm ha?..

M i r z ə H ü s e y n. Canım üçün, canın üçün.

S a l m a n o v. Hə, işimiz var ki...

M i r z ə H ü s e y n. İş demisən qalıb? Bütün işlərin başlanğıcı busə vasitəsilə olur, öpüş sevginin açarıdır.

S a l m a n o v. Bəs yaxşı, qız hardadır, hara getdi?

M i r z ə H ü s e y n. Mən içəri girən kimi çıxdı.

S a l m a n o v. Ay gözünə dönüm, sərf eləməyib ha... Yaxşı, mən bu əhvalatı Koromova xəbər verim ki, məlumatsız qalmasın.

Mirzə Hüseyn. Əlbəttə, səy eləmək lazımdır.

Salmanov. Bəs, sən necə? Səy eləmisən?

Mirzə Hüseyn. Bir Kərəmovun qol çokməyi qalıb. Beş yüz manat dəmirçi Musaya pul yazmışam.

Salmanov. Halal xoşu olsun.

Mirzə Hüseyn. Haqq-hesab görüləndən sonra beş yüzün sol böyrünə yapışdırarıq bir dənə 2 rəqəmi.

Salmanov. Qolun qüvvətli olsun.

Mirzə Hüseyn. Bu eləyəcək iki min beş yüz. Beş yüzü dəmirçi Musaya çatanda, iki mini də mən fəqir ilə sən zavallıya yetişər.

Salmanov. Xətrin xoş olsun.

Mirzə Hüseyn. Səs gəlir, deyəsən, Kərəmovdur.

Kərəmov içəri girib portfelini stolun üstünə atır.

Kərəmov. Salmanov, götür telefonu, məni rayon icraiyyə komitəsi ilə calaşdır. İşlər yenə düz getmir.

Salmanov cəld telefonu götürür.

Mirzə Hüseyn. Yoldaş Kərəmov, bu bir neçə vərəqə imza atın.

Kərəmov. Mirzə Hüseyn, şəhərə gedəndə mənim qolumun bir peçatını qayırtdır, lazım olanda özün bas. Yoruluram qol çəkməkdən. (*İmza atır*)

Salmanov. Yoldaş Kərəmov, rayon cavab vermir.

Kərəmov. Ay barişna, barişna... Salmanov, indi ki, telefon sözümüzə baxmır, onda götür təliqə yaz, surəti rayon kənd təsərrüfatı şöbəsinə.

Salmanov. Əsli hara?

Kərəmov. Əslini özün bilirsən, rayon icraiyyə komitəsinə. Son dərəcə təcili, yaz! "Şəfəq" kolxozunun plan tərəfdən geridə qalmasının və irəliyə atılan böyük addımların bir azca ləngidilməsinin səbəbi... Yazdın?

Salmanov. Xeyr, yoldaş Kərəmov, hələ ruçkanı tapmamışam.

Kərəmov. Eh, Salmanov, sənin də yaxşı başın var, amma axmaq adama rast gəlib.

Mirzə Hüseyn. Taxıllar daşındı, yoldaş Kərəmov?

Kərəmov. Daşındı, ya daşınmadı, nə fərqi var? Vaxtında ki, raport göndərə bilməyəcəyəm. Bilmirəm ayrı kolxoz sədrləri neyləyirlər ki, planı yüz faiz yerinə yetirirlər. Özü də vaxtından qabaq. Çığırbağırdır – məndən çox salan yoxdur. Ağıldır – məndə, gücdür – məndə.



Bəs, niyə bu plan dönüb xərçəngə, elə hey günü-gündən geri gedir? Başım çıxmır.

Mirzə Hüseyn. Ürəkyandıran köməkçiləriniz yoxdur. Bu kağıza da qol çəkin.

Kərəmov oxumayıb qol çəkir.

Kərəmov. Kamilə mənim əmrimi çap elədi?

Salmanov. Yaxşı bilmirəm. Mən gördüm ki, müəllimlə...

Kərəmov. Müəllimlə nə? Mızıldama, sözünü bütöv de!..

Mirzə Hüseyn. Mən indicə bu otağa gələndə gördüm ki, Kamilə müəllimlə şirin söhbət eləyir. Əllərində də divar qəzeti.

Kərəmov. Divar qəzeti? Mənim kabinetimdə divar qəzeti?

Mirzə Hüseyn. Bəli, məqalələrini də makinada sizin qardaşınız qızı yazır.

Kərəmov. Salmanov, Kamiləni tez bura çağır!

Salmanov çıxır.

Mirzə Hüseyn. Yoldaş Kərəmov, eşitdiyimə görə, müəllim sizin haqqınızda mərkəzi qəzetə böyük bir məqalə hazırlayıb.

Kərəmov. Hazırlasın, mənim adımı ki, gördülər, çap eləməyəcəklər. Yoldaş Kərəmovu hamı tanıyır. Ancaq tanımayıb çap eləsələr ha, sən öl, bir qiyamət qopardaram ki, mərkəzdən gəlib tamaşa eləyərlər.

Salmanov və Kamilə içəri girirlər

Hə, yaxın gəl görüm, mənim omrimi yazdın!

Kamilə. Bəli, yazmışam, yoldaş Kərəmov!

Kərəmov. Gətir, baxım. Müəllimlə bu gün nə barədə gizli danışırdınız?

Kamilə. Bizim söhbətimiz gizli deyildi.

Kərəmov. Uzatma, yəqin gizlindən gəlib mənim idarəmin sirlərini səndən öyrənirmiş. Ancaq onu da bilsin ki, pedaqoq-medaqoq mənim qabağımda davam gətirə bilməz.

Kamilə kağızları gətirib Kərəmovun stolunun üstünə qoyur.

Kamilə. Bir sözünüz varmı?

K ə r ə m o v. Yox, gedə bilərsən. Dayan! Katibimlə buxalterimi evə qonaq gətirəcəyəm, bozbaşdan-zaddan bişir. (*Əli ilə Mirzə Hüseynlə Salmanovu göstərir*)

M i r z ə H ü s e y n. Noxudunu bir az çox elə.

Kamilə cavab verməyib çıxır. Kərəmov kağızlara bir-bir qol çəkir, yerə atır. Salmanov onları yerdən yığışdırır.

M i r z ə H ü s e y n. Bugünkü əmriniz nə barədədir, yoldaş Kərəmov?

K ə r ə m o v. "Şəfəq" kolxozunun bütün üzvlərinə əmr eləyirəm: ya planı yüz faizdən artıq yerinə yetirsinlər, ya da ki, hamısını kolxozdan çıxardıram.

M i r z ə H ü s e y n. Düzgün fikirdir, gözəl tədbirdir.

K ə r ə m o v. Salmanov, dur gedək, bunları bütün divarlara yapışdıraq.

S a l m a n o v. Bəs, kağız? Biz ki, təcili kağız yazırdıq.

K ə r ə m o v. O qədər də təcili deyil. Mirzə Hüseyn, işini qurtar, sən də gəl, təbliğat aparmaq lazımdır.

M i r z ə H ü s e y n. Baş üstə! (*Kərəmov, Salmanov çıxırlar. Bir azdan o biri qapıdan dəmirçi Musa içəri girir*) Buyur, buyur, Musa dayı, əleykəssalam, oleykəssalam, bəyəndiyin yerdə otur.

M u s a. Məni niyə çağırmısan, Mirzə Hüseyn?

M i r z ə H ü s e y n. Necə yəni, niyə çağırmışam? Bəs yaxşı işləmisən, zəhmət çəkmisən, pul almaq istəmirsən?

M u s a. Nə pul?

M i r z ə H ü s e y n. Nağd pul. Buradan sənə bir az qəpik-quruş yetişəcək. Zəhmət çək, imza at, pulları al. Daha bundan şad xəbər nə ola bilər?

M u s a. Xeyr.

M i r z ə H ü s e y n. Necə xeyr?

M u s a. Ərz elədik ki, xeyr.

M i r z ə H ü s e y n. Ərz eləməyini eşitdim, amma xeyrin mənasını başa düşmədim. Necə yəni xeyr, pul almaq istəmirsən?

M u s a. Xeyr.

M i r z ə H ü s e y n. Qəribə işdir. Müfti-müsəlləm işləyirsən? Pul almırsan?

M u s a. Xeyr.

M i r z ə H ü s e y n. A kişi, bunun harası xeyir oldu? Bir əməlli-başlı cavab ver. Bağrım çatladı ki...



M u s a. Sən bu cavabın mənasını anlamazsan, mən sənə aydın-aşkar deyirəm ki, pul almayacağam, çünki o işi mən bir nəfərin xətri üçün yerinə yetirmişəm.

M i r z ə H ü s e y n. Məni basdırasan, əgər bir kəlmə başa düşdümsə. Əşi, xətir nədir, zad nə lir? Gəl şaq-şaq şaqqıldayan yüzlükləri verim, qatla qoy cibinə.

M u s a. Dedim ki, almıram.

M i r z ə H ü s e y n. Onda, bax, bu kağızın altından qol çək, xudahafiz, sən sağ, mən salamat.

M u s a. Xeyr, qol da çəkməyəcəyəm.

M i r z ə H ü s e y n. Daha səninki oldu ətiacılıq. Bu gün "xeyr" sözünü əzbərləyib vıxodnoysuz işlədirsən. Qol çəkməsən olmaz, bura rəsmi idarədir. Pul istəmirsən alma, daha imza atmağa nə söz? Al bu qələmi, bu kağızın altından adını yaz, qurtarsın getsin.

M u s a. Çəkil gözlərimin səkisindən. İmza da atmıram, pul da almayacağam. Vəssalam. Dedim, qurtardı.

Çöldən səs-küy eşidilir. Bir neçə kolxozçu əllərində divardan qopartdıqları əmr kağızları içəri girirlər.

İ b r a h i m k i ş i. Kərəmov haradadır?

T ə m r a z. Bu necə əmrdir?

M e h r a l ı və Ş i r ə l i içəri girir.

Ş i r ə l i. Bu cür əmr hələ tarixdə görünməyib.

M e h r a l ı. Mirzə Hüseyn, o üzüqara haradadır?

M i r z ə H ü s e y n. Xəbərim yoxdur. Mənim vəzifəm burada oturub xırda-xırda çotkə saymaqdır. Zəhmət çəkdin, haqqını gəl məndən istə. Budur, Musa dayı ilə də indicə onu danışırdıq.

M e h r a l ı. Bıy, Musa, xoş gördük. Səni mən birinci dəfədir bizim kolxozun idarəsində görürəm. Camaata yaxınlaşmaqda çox gözəl iş görürsən.

Ş i r ə l i. Musa, Surxay deyirdi ki, kursa gəlməyə söz vermisən, düzdür?

M u s a. Söz də vermişəm, gələcəyəm də... Mən camaatdan uzaqlaşmıram. Bəzi-bəzi adamlardan qaçıram, onlardan birini gözüm görəndə ağlım başımdan çıxır.

M e h r a l ı. Kərəmovu deyirsən? Onu görəndə elə mənim də ağlım başımdan çıxır.

Bu söhbət əsnasında Mirzə Hüseyn yavaşdan çıxır. S u r x a y tələsik içəri girir.

S u r x a y. Salam, yoldaşlar, kolxoz sədrinin təzə əmrini oxumusunuz?

Ş i r ə l i. Oxumuşuq, oxumuşuq... İndicə o barədə danışırdıq.

S u r x a y (*birdən Musanı görür*). Vay, Musa dayı, xoş-beş, on-beş... Siz hara, bura hara? Mehralı dayı, bir az o yana sürüş, qonağımız əyləşsin.

M u s a. Yox, yox, oturmuram, gedirəm. Sağ olun... (*Getmək istəyir*)

S u r x a y. Fikir verdinizmi, yoldaşlar, Ziynətin briqadası bu gün yenə qiyamət elədi. (*Musa ayaq saxlayıb qulaq asır*) Hamını ötüb keçdi.

M e h r a l ı. Gözəl insandır, gözəl qızdır, gözəl də briqadirdir. Bütün gözəlliklər onda bir yerə cəm olub.

M u s a. Göz dəyməsin, tuf-tuf-tuf, göz dəyməsin.

Ş i r ə l i. Musa, öz-özünə nə danışırsan?

S u r x a y. Musa dayı, söhbət şirin yerdən düşüb, əyləşin, görək.

M u s a. Surxay, işim çoxdur, mən burada ləngiyə bilmərəm.

Z i y n ə t içəri girir.

S u r x a y (*yavaşdan Musaya*). Hə, di get görüm, necə gedirsən?

M u s a. Mənim sözlərimi ona yetirmisənmi?

S u r x a y. Əlbəttə...

Z i y n ə t. Surxay! İclas çağırmışıq, gedək. Siz də gəlin, yoldaşlar, açıq iclasdır. Mehralı dayı, Şirəli dayı, siz də gəlin gənclərin səsinə səs verin.

M e h r a l ı. Biz hələ uşağıq, qızım, gənclik yaşımız deyil.

Hamı gülür.

Z i y n ə t. İclasdan sonra aqronomun məruzəsi var. Ona da qulaq asarsınız.

İ b r a h i m k i ş i. Məruzə nə barədədir?

S u r x a y. Məhsuldarlığın artırılması barədə, gedək yoldaşlar!

T ə m r a z. Məruzə ilə məhsuldarlıq artmaz. Kolxozun işlərini qaydasına salmaq lazımdır.

M e h r a l ı. Nə danışırsan, əşi, elm ağlın çırağıdır, nə qədər çox oldu, o qədər yaxşıdır. Bacardıqca oxu, doldur başına, bir gün gərək olar. Saxla samanı, gələr zamanı.



Ş i r ə l i. Yüz gün yaraq, bir gün gərək.

M e h r a l ı. Musanı da özümüzlə aparaq. Dur gedək, Musa. Kolxoz iclasına gəlmirsən, heç olmasa, gənclərin iclasında iştirak elə.

Z i y n ə t. Musa dayı burada imiş? Bağışlayın, mən sizi görməmişəm... Xoş gördük. (*Onunla görüşür*)

M u s a. Ziynət, quzum, mən sənin xahişini yerə salmadım, tapşırığını bir günün içində yerinə yetirdim. De görüm, indi nədir fərmanın, canı qurban sənə bu Musanın.

Z i y n ə t. Demək, o sifarişi mənim xətrimə yerinə yetirmisiniz?

M u s a. Yalnız və yalnız.

S u r x a y (*öz-özünə*). Məsələ yavaş-yavaş yoğunlaşır.

Z i y n ə t. Çox sağ olun, Musa dayı! Mənə böyük xəcalət vermisiniz.

M u s a. Nə xəcalət, nə üzrxahlıq? Ən müqəddəs borcumdur... (*Özünü itirir, Surxaya*) Surxay, məndən əvəz sən deyərsən, onu görəndə nitqim lal olur.

S u r x a y. Ziynət, Musa dayı deyir ki, bu cür tapşırıqlardan yüzünü yerinə yetirərəm, yenə yorulmaram...

Z i y n ə t. Bilirəm, yorulmaz. Doğrudan, yaxşı diqqət eləyəndə bu uzunluqda saqqala, bu cür papağa görə Musa dayı quş kimi cəld və bacarıqlı adamdır. Hə yoldaşlar, gedək, buyurun, Mehralı dayı!

M e h r a l ı. Yox, qızım, sən buyuracaqsan.

Ş i r ə l i. Əşi, buyur-buyura salmayın görək.

Gedirlər. Səhnədə Musa ilə Surxay qalır.

S u r x a y. Musa dayı, gedək.

M u s a. Çəkil gözlərimin səkisindən! O nə dedi?

S u r x a y. Sizi tərif elədi.

M u s a. Sükut! Bağla söz körüyünün ağzını. O nə üçün mənim saqqalımın uzunluğundan söhbət saldı. Məgər, bilmir ki, məhəbbət olan yerdə saqqaldan söz açmazlar!

S u r x a y. Musa dayı, mən Ziynət ilə bu barədə uzun-uzadı danışmışam. O deyir ki, ortada müəyyən eşq əmələ gəlməsinə saqqal mane olur. Çünki, doğrudan da, sizin saqqalınız çox uzundur.

M u s a. Demək, saqqal mane olur?

S u r x a y. Əlbəttə, mane olur.

M u s a. Saqqal yalnız üzü örtən tüklərdən ibarətdir. Sevgi isə...

S u r x a y. A kişi, sizə deyirəm ki, saqqal eşqin qabağını çəpər kimi tutur.

M u s a. Elə isə ləğv olundu. Əgər mənimlə onun arasında bu saqqal durubsa, onu məhv eləyərəm. "Ey məni eyliyən aləmdə pərişan saqqal, səni mən eyliyərəm yer ilə yeksan, saqqal." İndi burada sevgilinin kölgəsi qabağında titrəyən dizlərim yarım saat sonra dəlləyin qabağında büküləcəkdir.

S u r x a y. Dəlləkpulu da məndən.

M u s a. Əlvida, ey saqqal! Bu vaxta qədər sənə bir ülgüc toxundurmamışam. Neçə illərdir ki, sən mənə çox insanlardan vəfalı olmusan. İndi isə ayrılmalıyıq.

S u r x a y. Saqqal sükut eləyir, Musa dayı. Sükut razılıq nişanəsidir.

M u s a. Çəkil gözlərimin səkisindən. Bu saqqalın yaşı sənin kindən çoxdur. Bu saqqal səndən daha təcrübəlidir. Eşqin mənə göstərdiyi gücə bax ki, bu cür təcrübəli bir dostu mən yarım saatdan sonra bir dəlləyin çirkli ayaqlarına tökəcəyəm. Əlvida, ey saqqal, əlvida!..

İşıq sönür.

## DÖRDÜNCÜ ŞƏKİL

Çöldə bir meydança. Bir tərəfdə dəyə, dəyənin qabağında çayçı. Uzaqdan dağlar və ilan kimi qıvrılıb gedən çay görünür. S a l m a n o v çay içir. M i r z ə H ü s e y n tələsik içəri girir.

S a l m a n o v. Di gəl çıx da, ürəyim partladı axı, danış!

M i r z ə H ü s e y n. Çayçını yola sal.

S a l m a n o v (*çayçını səsləyir*). Ququş, qadan alım, gəl pulunu al! (*Çayçı pulu alıb gedir*) Hə, nə oldu?

M i r z ə H ü s e y n. Üstümdə bir qəpik də qalmadı. Üzülüşüb gedirdilər ki, Kərəmov işi korladı.

S a l m a n o v. Necə korladı?

M i r z ə H ü s e y n. Çığır-bağır salmağa başladı ki, iki min beş yüz manata araba təkəri qayırmazlar. Mən də dedim, yoldaş Kərəmov, özünüz qol çəkmisiniz. Gözünü döyə-döyə qaldı. Deyir, dəmirçi Musa məni aldadıb, onu məhkəməyə verəcəyəm.

S a l m a n o v. O pis oldu. Musa məhkəmədə üstünü açacaq.

M i r z ə H ü s e y n. Allah vurmuşdu. Onun sözünə inanan kimdir? Əlimizdə sçot var.



S a l m a n o v. Sçotu özün yazmısan?

M i r z ə H ü s e y n. Özüm. Daşdan keçər.

S a l m a n o v. Yeni əlifba ilə?

M i r z ə H ü s e y n. Bəs necə? Köhnə ilə imza qəbul eləməyə ixtiyarım yoxdur.

S a l m a n o v. Elə burada korlamısan. Musa yeni ilə bir hərf də yaza bilmir.

M i r z ə H ü s e y n. Başa düşən olmaz, qorxma, Musa kursa yazılıbdır. Məsələnin üstü açılınca savadlanar.

S a l m a n o v. Qəzet də bir yandan işləri korladı. Gedək onun yanına, bir az tərifləyək.

M i r z ə H ü s e y n. Düzdür, tərif ona tiryək kimi təsir edir.

Getmək istəyirlər, Salmanov tez geri dönür.

S a l m a n o v. Bu yoldan gəl. Hamının məndən zəhləsi getsə, mənim də bu müəllimdən zəhləm gedir.

M i r z ə H ü s e y n. Şeyda bu tərəfə gəlir? Düzdür, yolu dəyişsək yaxşıdır.

Çıxırlar. Ş e y d a və K a m i l ə içəri girirlər.

Ş e y d a. Bircə dəqiqəliyə mənə qulaq as, əgər xoşun gəlməsə, heç bir kəlmə də oxumaram.

K a m i l ə. Yox, istəmirəm. Keçən dəfə oxuduğunuz şeirdən mən hələ özümə gəlməmişəm. Qəribəm, Kərəməm, paçti Məcnunam, ha, ha, ha... Elə də şeir olar? Siz sevgidən, gözəl mənzərələrdən yazın. Onda qulaq asaram.

Ş e y d a. Ay qız, bu oxumaq istədiyim, şeir deyil.

K a m i l ə. Bəs nədir?

Ş e y d a. Məqalə. Sizin əminiz haqqında.

K a m i l ə. Məqalə? Göstərin görək... (*Qəzeti açıb baxır*) Sən yazmısan? Eh, səhv elədim, siz yazmısınız?

Ş e y d a. Siz yox, sən. (*Əlindən tutur*)

K a m i l ə. Şeyda, əlimi buraxın.

Ş e y d a. Mənə siz əvəzinə sən deməsən buraxmayacağam.

K a m i l ə. Yaxşı... burax, qoy qəzeti oxuyum.

Baş-başa verib oxuyurlar.

Ş e y d a. Bax, burasını, axırını diqqətlə oxu!

K a m i l ə (*oxuduqdan sonra*). Sən neyləmisən, Şeyda? Bu məqalədən sonra əmim səni öldürəcək.

Ş e y d a. Əgər sən məni sevmirsənsə, qoy öldürsün.

K a m i l ə. Bu saat o söhbətin yeri deyil.

Ş e y d a. Kamilə! Əminlə bizim aramızda böyük mübarizə başlayacaq, heç olmasa, sən axır sözünü de, məni sevirsən, ya yox?

K a m i l ə. Şeyda! Hər sözü açıb deməzlər, axı. Özün başa düşmürsən?

Ş e y d a. Kamilə can...

Şeyda sevincək ona yaxınlaşır. Bu halda kolxozçular: M e h r a l ı, Ş i r ə l i, T ə m r a z, İ b r a h i m k i ş i və qeyriləri içəri girirlər. Kamilə utanıb çıxır.

M e h r a l ı. Salam, Şeyda müəllim, deyirlər, bu gün qiyamət eləmisən. (*Çayçıya*) Beş stəkan məxməri çay ver, Ququş! Qırağında ləb yeri də olsun...

Hamısı oturur.

Ş e y d a (*onlarla görüşür*). Mehralı dayı çay içməkdə də rekord vurmaq istəyir.

Ş i r ə l i. Müəllim, qəzet yanındadırsa ver, baxaq.

M e h r a l ı. Ay müəllim, gəl lap mənim yanımda əyləş, yumşaq yerdə... A Ququş, müəllimə bir samovar çayı.

İ b r a h i m k i ş i. Sənin o qoləminin şiş ucuna mən qurban.

T ə m r a z. Nə olubdur ki? Dünən imtahanı verdik qurtardı, bu gün müəllimə təzədən nə hörmətdir?

M e h r a l ı. Ay Təmraz, sən bilməyən işlər dünyada çoxdur. Müəllim qaz vurub, qazan doldurub.

Ş e y d a. Ay Mehralı dayı, o qədər də küyləmə. Mən nə böyük iş görmüşəm ki?

M e h r a l ı. Daha neyləyəcəksən? Deyirlər, kişinin eni ilə uzununu barabarlaşdırmısan. Hələ bundan artıq da bir iş görmək istəyirdin? Oxu görək.

Ş e y d a. Mən sizə hamısını oxumayacağam. Təkcə Kərəmov haqqında yazılmış yerləri oxuyum, qulaq asın.

M e h r a l ı. Oxu, nəfəsinə qurban, oxu...

Ş e y d a (*oxuyur*). Kərəmov, kolxozun adından istifadə edərək hər zaman öz mənfəətlərini irəli sürür, qolçomaq quyruqlarını, oğruları



müdafiə edir. Qərəz hamısını oxumuram. Nəticəsi budur: Kərəmov kolxoza mane olur. O, iş başından götürülməsə, "Şəfəq" kolxozu irəliyə gedə bilməyəcək.

Ş i r ə l i. Sağ ol, bala. Hamımızın ürəyindən tikan çıxartmısan.

T ə m r a z. Mənim bu əhvalatdan heç xəbərim olmayıb. Muştuluq istəsəydiniz, verərdim.

İ b r a h i m k i ş i. Gərək, Mehralı, elə günü bu gün işə əncam çəkək.

M e h r a l ı. Məqaləni iclasda müzakirə eləmək lazımdır.

M ə m m ə d ə l i içəri girir.

M ə m m ə d ə l i. Salam, yoldaşlar.

İ b r a h i m k i ş i. Ay, əleykə... Gəl otur, ağzımız dada gəlsin.

Ş i r ə l i (*stəkanı yanı üstə qoyur*). Durun, yavaş-yavaş gedək.

M e h r a l ı. Hara gedirik? Məmmədəli bir-iki ağız deməsə, mən heç ayağa qalxa bilmərəm. O nə idi, ay Məmmədəli, o gün deyirdin: qənim olsun, məskənim olsun...

M ə m m ə d ə l i. Canım üçün, Mehralı dayı, heç kefim yoxdur. Soyuq dəyib, matoru xarab olmuş maşın kimi boğazım tır-tır tırıldayır.

İ b r a h i m k i ş i. Qəbulumuzdur, oxu.

M e h r a l ı. Yenə, necə olsa, ət suyudur. Deyir, qatıq tökülsə, yeri qalar, ayran tökülsə nəyi qalar? Oxu görək.

M ə m m ə d ə l i. Səsimin yaxşı vaxtında dağa-daşa oxuyuram, qulaq asan olmur, pis vaxtında siz tutursunuz yaxamdan. (*Oxuyur*)

Yarım səri-kuyində təki məskənim olsun...
Cənnət adı çəksəm, mənə tanrım qənim olsun.

M e h r a l ı. Qənim olsun, bala, qənim olsun.

Məmmədəli oxuyub qurtarır, hamı ol çalır.

M ə m m ə d ə l i. Bugünlük bəsdir.

M e h r a l ı. Çox sağ ol. Ruhumuzu şad elədin. (*Çayçıya*) Ay Ququş, gəl çayların pulunu al!

T ə m r a z. Mehralı, sən zəhmət çəkmə, məndə xırda var.

M e h r a l ı. Xeyr, bu il çay mənim hesabımadır. (*Pulları verir*) Gəlin bir gedək, camaatla da məsləhətləşək. Müəllim, sən də gəl. Sən bugünün qəhrəmanısan.

Çıxırlar. K a m i l ə və Z i y n ə t içəri girir.

K a m i l ə. Ziynət, bacım, səni təcili qucaqlamaq istəyirəm.

Z i y n ə t. Nə olub, niyə belə həyəcanlısan?

K a m i l ə. Of, ürəyim tıp-tıp tıppıldayır.

Z i y n ə t. Ay qız, bir dayan, açıq danış!

K a m i l ə. O mənə dedi ki, səni sevirəm.

Z i y n ə t. Kim?

K a m i l ə. Müəllim.

Z i y n ə t. Nə olar deyəndə? Müəllim öz tələbəsini sevməlidir.

K a m i l ə. Yox, Ziynət, o dedi ki, məni bir sevgili kimi sevir, mənsiz bir dəqiqə yaşaya bilmir. Amma mən qaya kimi dinməz dayandım. Əvvəlcə bir kəlmə cavab vermədim, sonra...

Z i y n ə t. Sonra nə oldu?

K a m i l ə. Sonra daha davam gətirə bilmədim. Mən də ürəyimi açdım... Ziynət, gəl səni qucaqlayım.

Z i y n ə t. Qoy mən səni qucaqlayım... Xoşbəxtsən!

K a m i l ə. Amma dərd məni götürüb, Ziynət, bu gün qəribə bir gündür, həm şadam, həm də peşman. Bu gün həm biz sevgimizi bir-birimizə açmışıq, həm də qəzetdə Şeydanın məqaləsi çıxıb. Heç əmim bizim toyumuza icazə verər?

Z i y n ə t. İcazəsiz gedərsən.

K a m i l ə. Yox, əmimi incitmək istəmirəm. Nə qədər acıdil, kobud da olsa, yenə də mənə atalıq eləyib.

S u r x a y içəri girir.

S u r x a y. Yenə göyərçinlər kimi nə baş-başa vermisiniz?

Z i y n ə t. Surxay, mən səni axtarırdım, yaxşı ki, özün gəldin.

S u r x a y. Axtarsaydın, tapardın. Mən bu cavan ömrümü sənin dalınca gəzməyə sərf eləmişəm. Kamilə ilə Şeydadan ibrət götür, bir dəqiqə bir-birilərindən ayrılmırlar.

K a m i l ə. Heç yox... Mən neçə gündür Şeydanın üzünü də görməmişəm.

S u r x a y. Baho, Kamilə burda imiş ki... Heç xəbərim olmayıb... Bağışlayın, üzr istəyirəm. Neçə gündür, Şeydanın üzünü görmənisiniz?

K a m i l ə. Nə bilim, neçə gündür. (*Ziynətə*) Hələ o barədə heç kəsə demək olmaz.

S u r x a y. Amma Şeyda indicə mənə ayrı sözlər danışırdı.

K a m i l ə. Nə danışırdı ki?



S u r x a y (*Ziynətə*). Gör necə qızaracaq... (*Kamiləyə*) Müəllim birtəhər idi. Baş-ayaq vururdu. Deyirdi, guya, bu gün məsələ həll olunub, bu yaxınlarda toydur, guya, ürəyini açıb sizə deyib, siz də ona müsbət cavab vermisiniz. Bıy, ay Kamilə, niyə belə qızardınız?

K a m i l ə. Lap rüsvay oldum. (*Çıxır*)

Z i y n ə t. Həmişə sən bu qızı utandırırsan, Surxay.

S u r x a y. Bəs biz? Biz nə vaxt bu cür utanacayıq?

Z i y n ə t. Hələ dayan, o söhbətlərin vaxtı deyil.

S u r x a y. Bəs nə zaman, məni başa sal, görüm, nə zaman danışacayıq? O vaxtlar ikimiz də adi kolxozçu idik, mən bir işarə vurdum, dedin gözlə, vaxtı deyil. Çox gözəl. Sonra olduq manqabaşçısı, yenə dedin gözlə, səbr elədim. İndi briqadirik, yenə gözləyim? Birdən sabah səni götürüb ispalkom elədilər, onda mən neylərəm? Gəlib deyə bilərəm ki, yoldaş ispalkom, səni sevirəm.

Z i y n ə t. Surxay, boş söhbətlər eləmə, gəl yanımda otur, gör nə deyirəm...

S u r x a y. Yox... Daha üsyan eləyirəm. Bax, bu ağaclar, otlar, güllər, çiçəklər hamısı mənə deyir ki, nə durmusan, get onun əllərindən tut, "hə" cavabı almayınca, buraxma. (*Ziynətin əlindən tutur*)

Z i y n ə t (*gülür*). Surxay! Ağacların, otların sözünə qulaq asma, burax əlimi...

K ə r ə m o v təcili içəri girir. Onlar ayrılırlar.

K ə r ə m o v. Hanı qəzet?

S u r x a y. Nə qəzet?

K ə r ə m o v. Hamınızı damlayacağam. Qəzeti mənə tapın. Mirzə Hüseyn, Salmanov! (*Çıxır*)

Z i y n ə t. Bir çətinliyə düşən kimi o saat əlaltılarını axtarır.

S u r x a y. Eybi yoxdur. Bizim yoxlamamız onların işlərini alt-üst eləyər.

Z i y n ə t. Məsələ də ondadır ki, alt-üst eləyə bilmədi.

S u r x a y. Yoxlama qurtardı?

Z i y n ə t. Qurtardı, üstlərində bir qəpik də pul qalmadı.

S u r x a y. Gör, nə ustadırlar.

Z i y n ə t. Ancaq bir məsələ var. Dəmirçi Musanın təkərlər üçün iki min beş yüz manat pul almasına inanırsan?

S u r x a y. İnanmıram, Musa kişi o qədər pul almaz.

Z i y n ə t. Mənce, heç bir qəpik də almayıb.

S u r x a y. Bəs imzası yoxdur.

Z i y n ə t. Var. Ançaq yeni əlifba ilədir. Musa kişi hələ heç bir dəfə də dərsə gəlməyib, yeni əlifbanı da bilmir. Deməli, onun əvəzinə başqası imza atıb. Bilmirəm, həqiqəti necə öyrənək.

S u r x a y. Musanın özündən soruşmaq lazımdır.

Z i y n ə t. Heç deyərmi?

S u r x a y. O məndə. Dəmirçi Musa bu saat ən böyük sirlərini mənə deyir. Hələ sən olmasaydın, heç arabalar da işə düşməyəcəkdi.

Z i y n ə t. Doğrudan, Surxay, bu sirri mənə aç, nə üçün dəmirçi Musa məni görəndə bir cür olur.

S u r x a y. Bir cür yox, çox cür olur.

Z i y n ə t. Mən söz deyən kimi, o saat "baş üstə" deyir. Görəsən, işin içində nə var?

S u r x a y. İstəyirsən açıb sənə deyim?

Z i y n ə t. Hə, de görüm, nə var?

S u r x a y. Günlərin bir günündə, dəmirçi Musanın zindanının dibində, axşama iki saat ya qalardı, ya qalmazdı.

Z i y n ə t. Müxtəsər danış.

S u r x a y. Yaxşı, müxtəsər ki... yazıq kişi aşiq olubdur.

Z i y n ə t. Kimə?

Bayırdan səs gəlir.

S u r x a y. Zalxa arvaddır. Gəlib yenə tutacaq xirtdəyimdən... Gedək.

Z i y n ə t. Gedərik, sən de görək, dəmirçi Musa kimə aşiq olub?

S u r x a y. Bilirsən kimə? Haman bu Zalxa arvada.

Z i y n ə t. Nə danışırsan? Bəs yaxşı, Zalxa arvada aşiq olub, mənə niyə hörmət eləyir?

S u r x a y. Çünki... deyir ki... Zalxa arvada, deyir, təkcə Ziynət təsir eləyə bilər. Zalxa arvadı görən kimi yazıq qaçır, özünü itirir, eşqin şiddətindən dalaşmağa, söyməyə başlayır.

Z i y n ə t. Nə qəribə eşqdir.

S u r x a y. Bəs necə? Eşq insanı cürbəcür şəklə salır.

Z i y n ə t. Demək, Zalxa arvadın xətrinə mənə hörmət cləyir?

S u r x a y. Yalnız onun xətrinə. İndi sən gərək o yazığa kömək elə-yəsən, Ziynət can!



Z i y n ə t. Necə kömək?

S u r x a y. Gərək Zalxa arvadı başa salasan.

Z i y n ə t. Mən qorxuram, Surxay, Zalxa arvada o cür söz demək olar?

S u r x a y. Qorxma, üreyindən olacaq.

Z a l x a içəri girir.

Z a l x a. Yenə baş-başa vermisiniz? Bəs deyil? Burada kölgədə oturub, pıçı-pıçı eləməkdənsə, gedin kolxozun işlərini düzəldin. Kərəmov dağıtdı kolxozu. Buna bax, nə mənim üzümə baxır? (*Surxayı göstərir*)

S u r x a y. Ay Zalxa xala, mən sizə neyləmişəm?

Z a l x a. Neyləmisən? Bundan artıq neyləyəcəksən? O töylənin divarına vurulan siyahıda hanı mənim adım? Sənə demədimmi ki, birinci gərək mənim adımı yazasan?

S u r x a y. Ay Zalxa xala, o staxanovçu çobanların siyahısıdır. Sən ki, çoban deyilsən.

Z a l x a. Hər kiminki olur-olsun, siyahıdır, yoxsa yox? Gərək mən Zalxanın adı başda olsun. Hələ qoy məhsul yığımını qurtaraq, sonra sizinlə danışacağam. Gedirəm Kərəmovu axtarmağa. (*Çıxır*)

S u r x a y. Bu Zalxa xaladan yaxşı pulemyotçu çıxar.

Z i y n ə t. Heç onunla sevgi barəsində danışmaq olar? (*Getmək istəyir*)

S u r x a y. Onu yalnız sevgi yumşaldar. Dayan, getmə...

Z i y n ə t. Mən getdim, sən qalırsan, qal.

S u r x a y. Yox-yox... Sənsiz mən burada neyləyəcəyəm?

Çıxırlar. K ə r ə m o v əlində qəzet, S a l m a n o v, M i r z ə H ü s e y n içəri girirlər.

K ə r ə m o v. Salmanov, görürsənmi? Görürsənmi, Mirzə Hüseyn?

M i r z ə H ü s e y n. Hələlik bir şey görmürük, yoldaş Kərəmov.

K ə r ə m o v. Mənə toxunublar, Mirzə Hüseyn... (*Bir qədər sükutdan sonra*) Aslanı yaralayıblar. Aslan yaralananda neyləyər, bilirsənmi, Mirzə Hüseyn?

M i r z ə H ü s e y n. Bilmirəm, yoldaş Kərəmov. Mən məktəbdə oxuyanda həmişə heyvanat dərsindən zəif qiymət alardım.

K ə r ə m o v. Aslan yaralananda onun qabağında fil də dayana bilməz. Dedim, mənə dəyməyin, dəydilər, eybi yoxdur, özləri zərər çəkəcəklər. Bir papaq eləsəm, bütün Bakı bir-birinə dəyər.

S a l m a n o v. Əlbəttə, yoldaş Kərəmov.

Mirzə Hüseyn. Bu işlərin hamısının mayeyi-fəsadı Ziynətdir. Şeydaya məqaləni yazdıran da odur, yoxlamanı təşkil eləyən də. Eşitdiyimə görə, şəhərdə bizim deputatla danışıb.

Kərəmov. Nə olar deputatla danışanda? Deputat kimdir, xalqın nökəri. Deputat gərək gündə iki dəfə mənim kefimi xəbər alsın ki, yoldaş Kərəmov, necəsən? Eh, yanıram, Mirzə Hüseyn, yanıram. Yaxşı, Ziynət, mən mən olum, sən də sən. Aslanı yaralamaq asan məsələ deyil. Yaralı aslanın nərəsinə Ziynət-miynət davam gətirə bilməz. A kişilər, axı, mən bu kənddə qiyamət yaratmışam, qiyamət. Mən nə üçün vuruşmuşam? Mən nə üçün bu kolxozu yaratmışam? Qəzetdə biabır olmaq üçünmü? Salmanov, təcili yaz!

Salmanov. Kağız hazırdır, yoldaş Kərəmov.

Kərəmov. Təcili. Surəti rayon icraiyyə komitəsinə və rayon prokurorluğuna.

Salmanov. Bəs əsli hara?

Kərəmov. Əslini də göndərməyə yer taparıq, son yaz.

Salmanov. Hazır.

Kərəmov. Yaz: mən 1895-ci il rəcəbülmürəccəb ayında bir muzdur ailəsində anadan olmuşam.

Salmanov. Yoldaş Kərəmov, sizin tərcümeyi-halınız məndə çoxdur. Əmr verin, hər idarəyə bir nüsxə göndərim.

Kərəmov. Yox, bu təzə tərcümeyi-haldır. Burada mən hamısını deyəcəyəm. Yaz: altıaylığında anam, rəhmətlik Səkinə...

Mirzə Hüseyn. Allah rəhmət eləsin.

Kərəmov. Allah ölənlərinə rəhmət eləsin... Harada qalmışdıq, Salmanov?

Salmanov. Rəhmətlik ananız haqqında danışırdınız.

Kərəmov. Hə, anam vəfat elədi və atam ilə bərabər mən də çölə, işləməyə getməyə məcbur oldum.

Salmanov. Altıaylıq uşaq yeriyə bilməz, axı?

Kərəmov (*hirsli halda*). Kərəmov yeriyər.

Salmanov. Bəlkə bir az böyüdəsiniz.

Kərəmov. Yaxşı, olsun bir yaşından. Bir yaşında uşaq gəzər?

Salmanov. Əlindən tutsan, gəzər.

Kərəmov. Yaz, bir yaşından.

Salmanov. Yoldaş Kərəmov, iş ki, belə oldu, qoy mən evdə, arxayınlıqla oturub sizin üçün ətraflı bir tərcümeyi-hal düzəldim.



Kərəmov. Yaxşı, düzəlt, sonra gətir ver, qol çəkim. Aslanı yaralayıblar. Gör yaralı-yaralı nə tufan qoparacağam, Mirzə Hüseyn!

Mirzə Hüseyn. Bəli, yoldaş Kərəmov!

Kərəmov. Müəllim Şeydanın məvacibini vermə.

Mirzə Hüseyn. Əlbəttə, vermərəm.

Kərəmov. Aylarla gəlib mənim qapımda dayansa, qəbul eləməyəcəyəm. Adə, dərd məni yandırır, a kişilər. Dəmirçi Musa beş-altı araba təkəri təmir eləmək üçün iki min beş yüz manat pul alıb. Basıb yeyirlər kolxozu, vallah, basıb yeyirlər. İki min beş yüz manata qırx dənə təzə araba almaq olardı.

Mirzə Hüseyn. Yazıqdır, yoldaş Kərəmov, əziyyəti çox olub.

Salmanov. Ona toxunmayın, gecəli-gündüzlü işləyib.

Kərəmov. Yox-yox, ürəyiyumşaq olmayın, dəmirçi Musaya mən toy tutacağam, aləmi yandırıb-yaxacağam. Təcili kağız yaz, Salmanov! Son dərəcə təcili... Teleqram vur...

Salmanov. Nə barədə?

Kərəmov. Dayan, dayan, lazım olmadı. Lap başımı itirmişəm. Axşam iclas çağırıb, gərək düz səhərə kimi tək özüm danışam. Gedək!

Onlar gedirlər. Saqqalını qırxdırmış dəmirçi Musa və Zalxa arvad qarşı-qarşıya çıxırlar.

Zalxa (*onun üzünə çox diqqətlə baxır*). A yoldaş, sən buralarda nə axtarırsan?

Musa. Mən buralarda həyata, eşqə ziynət olan bir şəxsi axtarıram.

Zalxa. Başa düşmədim, yəni nə axtarırsan? Kənd sovetini istəyirsən, yoxsa kolxozu?

Musa. Heç birisini. Əl çək məndən!

Zalxa. Sənin sənətin nədir?

Musa. Mən hər zaman dəmirlə əlləşən polad ürəkli bir adam idim. İndi isə sevgi ürəyimi döndərib mum elədi.

Zalxa. Demək, dəmirçi imiş. Sən burada dəmirçi Musanı tanıyırsanmı? Uzunsaqqal bir kişidir.

Musa. Sükut! O artıq yoxdur. Uzunsaqqal dəmirçi Musa dəllək dükanında qaldı, mən Musanın təzə bir şəkliyəm.

Zalxa. Bıy, bu elə dəmirçi Musa özü imiş. A kişi, bəs saqqal hanı? Bu nə biabırçılıqdır?

Musa. Saqqal eşq ilə mənim aramdakı müharibədə şəhid oldu.

Z a l x a. Ətin tökülsün, a kişi! Utanmadın, qocalıqda özünü bu şəklə saldın? O uzun şüvə saqqala hayfın gəlmədi?

M u s a. Sükut! Ey insanların ən bədbəxti! Tükün uzunluğu axmaqlıq nişanəsidir ki, onu da Allah qadınlara verib.

Z a l x a. Bədbəxt niyə oluram, ay üzüqara! Bədbəxt sənin kimi cavanlıqda yuxulayıb qocalıqda ayılanlardır. Dünyanın hansı kefini, hansı ləzzətini görmüsən ki, holə özünü xoşbəxt də hesab eləyirsən?

M u s a. Çəkil gözlərimin səkisindən, əlimə-ayağıma dolaşma!

Z a l x a. Bunun dilinə-diyircəyinə bir bax. Ağaclar baş tərpədəndə, söyüd deyər, mən də, mən də...

M u s a. Əstəğfürullah, işə düşmodik. Ay arvad, nə girləmisən məni? Əl çəksənə, nə vermisən, ala bilmirsən?

Z a l x a. Belə sənin başına mən bir oyun açaram ki, çəkic vurmağı yaddan çıxardarsan. De görüm, saqqal hanı?

K ə r ə m o v, S a l m a n o v, M i r z ə H ü s e y n qayıdırlar.

K ə r ə m o v. Bu nə yığıncaqdır?

Z a l x a. Aha, Kərəmov, səhərdən səni axtarırdım. Mən, necə bir heyət üzvü, səndən tələb eləyirəm. Gəl haqq-hesab ver, görüm, o qəzetdə yazılan nə əhvalatdır?

K ə r ə m o v. Nə əhvalat olacaq? Görmürsən, aslanı yaralayıblar? Bu kimdir?

Z a l x a. Bunu tanımırsan? Dəmirçi Musadır da.

K ə r ə m o v (*çığırır*). Salmanov, protokol yaz. Salmanov, təcili! Adə, dəmirçi Musa, demək iki min beş yüz manatı almısan, indi üzünü qırxdırıb, toğyiri-libas eləyib, qaçmaq istəyirsən?

M u s a. Kərəmov! Bu saat sənlə söhbət eləməyə mənim həvəsim yoxdur.

K ə r ə m o v. Olmaz da, pulları yemisən, üstündən də su içmisən. İndi dama girəndə ağlın başına gələr.

M u s a. Nə puldur, mən başa düşmürəm.

K ə r ə m o v. Bilməzsən, əlbəttə. İmzan var, imzan, qol çəkmisən.

M u s a. Çəkil gözlərimin səkisindən, mən pul-zad almamışam.

K ə r ə m o v. Necə? Mənə çəkil deyirsən? Ay camaat, eşitdiniz? Ay yoldaşlar, adə hey... (*Haray salır. Surxay, Ziynət və bir neçə kolxozçu gəlirlər*) Bura gəlin. Səni mən bu saat prokurorun yanına göndərməsəm, adımı Kərəmov yox, İtov qoyaram.



S u r x a y. Yoldaş Kərəmov, bir bizi başa salın, görək nə əhvalatdır?

K ə r ə m o v. Saqqallı vaxtında məndən gizlin iki min beş yüz manat pul alıb, indi saqqalını qırxdırıb, aldığı pulları danır. Bu cür işə Kərəmov dözər?

S u r x a y. Musa dayı, saqqal getdi?

Z i y n ə t. Axı, hanı burada Musa dayı? Mən görmürəm. Aha, təbrik eləyirik, ay Musa dayı. Siz təkərlər üçün iki min beş yüz manat pul almısınız?

M u s a. Ziynət, quzum, mən sənin verdiyin zəhmətə haqq istəmərəm, mən pul almamışam.

M i r z ə H ü s e y n. Kişi utanmır, gör necə yalan danışır...

K ə r ə m o v. Bu saat, bax, bu camaatın qabağında cavab ver. Kolxoz pulu sənin üçün semiçkadır, bəyəm? (*Musaya yaxınlaşır*) Vallah, cırımcırım eləyəcəyəm. Aslanı yaralayıblar.

M u s a. Bağla söz körüyünün ağzını. Aslanı yaralayıblar. Aslana bax... Mən çox sənin kimi aslanları zindanın üstünə qoyub tülküyə döndərmişəm. Düzdür, təkərlər üçün zəhmət haqqı təklif elədilər, mən rədd elədim. İndi bəs hansı iki min beş yüz manatdan söhbət salmısınız?

M i r z ə H ü s e y n. Almısan, altından da imza atmısan. Fırıldağa salıb danmaq istəyir hə...

M u s a. Çəkil kənara, məlun, sən mənə pul vermək istəyəndə, mən onu rədd etmədim?

S u r x a y. Aha, məsələ yavaş-yavaş aydın olur.

K ə r ə m o v. Mənim hesablarımı qəsdən dolaşdırmaq istəyir, inanmayın...

M i r z ə H ü s e y n. O fırıldaqlar baş tutmaz.

K ə r ə m o v. Salmanov, protokol bağla.

Z a l x a. Bağlama, dayan görüm. Biz bu kişini yaxşı tanıyırıq. (*Musanı göstərir*) Hələ bu kənddə onun ağzından yalan söz eşidən olmayıb, amma sən Mirzə Hüseyn yalançısan, oğrusan, iki min beş yüz manatı özün cibləmisən. Sən Salmanov da onunla əlbirsən, sən Kərəmov da onların quyruğusan. Yaxşı hesabdarımızı işdən çıxartdın, bunları hardansa tapıb gətirdin.

Z i y n ə t. Sağ ol, Zalxa xala, düz deyirsən, bu işi yoxlamaq lazımdır.

K ə r ə m o v. Sizin namuslu adamları ləkələməyə haqqınız yoxdur. Mən Mirzə Hüseynin düzgünlüyünə başımı girov qoyaram.

Z a l x a. Qiymətli şeyi girov qoyarlar, sənin başın çox ucuzdur.

Kərəmov. Yaxşı, bu məsələlərin hamısını iclasda ayırd eləyərik. İclasda mən göstərərəm ki, görək təğyiri-libas eləyib qaçmaq hansı maddəyə düşür?

Zalxa. Kişi saqqalını qırxdırıb, özünü biabır eləmədi?

Musa (*Zalxaya*). Sükut! Bağla söz körüyünün ağzını.

Ziynət. Musa dayı!

Musa. Buyur, Ziynət can, əmrin nədir?

Ziynət. Siz nahaq Zalxa xala ilə bu cür rəftar eləyirsiniz. Qadınlarla o cür danışmaq olmaz.

Musa (*yavaşdan*). Surxay, məni başa sal, o nə demək istəyir?

Surxay. Deyir ki, qadınlara hörmət elə, incə ol.

Musa. Elə isə mən bu gündən bütün qadınlara sülh elan edirəm.

Kərəmov. Biz sülhü sənə başa salarıq. Gəlin gedək, uşaqlar, ağ üz ilə, qara üz iclasda məlum olar.

Ziynət. Məlum olar, biz də gedək.

Pərdə

## ÜÇÜNCÜ PƏRDƏ

### BEŞİNCİ ŞƏKİL

Kolxoz klubunun həyəti. Hər tərəf ağaclıq, otluqdur. Salmanov və Mirzə Hüseyn tribuna düzəltmək üçün stol, skamya gətirirlər, dallarınca Kərəmov çıxır.

Kərəmov. Hə, belə ha... Tribunanı düz o təponin üstündə qoyun. Belə ha... İndi nolar, baxıb görsünlər ki, kolxoz geridə qalır, yoxsa irəli gedir? Siyahını da gətirib vurarsınız, bax, bu tribunanın qapısına... Qoy həmişə gözlərinin qabağında olsun.

Salmanov. Siyahıya o qədər əhəmiyyət verməyin, yoldaş Kərəmov, siyahıdan nə çıxar?

Kərəmov. Nə çıxsa, siyahıdan çıxar. Siz nə qanırsınız, idarə, haqq-hesab nə deyən sözdür? Mənə planı doldurmaq lazım deyil, hökumətə bir teleqram vurmaq lazımdır ki, plan doldu. Yaxşı, Mirzə Hüseyn, gedək materialları gətirək. Mən gərək məruzəyə hazırlaşam. Salmanov!

Salmanov. Bəli, yoldaş Kərəmov!

Kərəmov. Sən də get, bura çoxlu fənər gətir.



Mirzə Hüseyn. Gündüzün günortasında fənər nəyinizə lazımdır, yoldaş Kərəmov?!

Kərəmov. Onu mən bilirəm, nəyə lazımdır. Bəs elə bilirsiniz, mənim fəaliyyətim bir saatın, iki saatın içinə sığışar? Mən məruzəni indi başlayıb səhərə yaxın qurtaracağam. İşıq olmasa, camaatın üzünü görmərəm, yaxşı, gedək daha... Çox əcəb... Tribuna var, stol, skamya var... Daha kim deyə bilər ki, kolxoz geridə qalır? Gəlin, dalımca...

Çıxanda Ziynətlə Surxaya rast gəlir

Hə, tir-tir əsirsiniz?

Ziynət. Kim?

Kərəmov. Siz. Hamınızı külə döndərəcəyəm.

Ziynət. Yaxşı deyil, Kərəmov, kolxoz sədri öz briqadirlərini hədələməz.

Kərəmov. Hədələyər, hələ iclasda briqadirlikdən çıxardar da.

Kərəmov, Salmanov və Mirzə Hüseyn çıxırlar.

Ziynət. Tribuna, qrafin, stol, zəng... Hər şey hazırdır.

Surxay. Belə işləri bacarır.

Ziynət. Bu iclas onun axırıncı iclası olar.

Surxay. Mən də belə düşünürəm.

Ziynət. Yaxşı, danış görüm, nə oldu?

Surxay. O səndən asılıdır. Ziynət can, məhsul bayramı yaxınlaşır... Bizim məsələmiz nə oldu?

Ziynət. Sən də, Surxay, radiokomitənin konsertləri kimi həmişə bir havanı çalırsan. Məhsul bayramına hazırlıq sənə tapşırılmışdı. Mən onu soruşuram, nə oldu?

Surxay (*birnəfəsə cavab verir*). Bütün tapşırıqlar yerinə yetirilib. Məhsul bayramı üçün şəhərdən artist briqadası gələcək, bizim musiqiçilərdən başqa hələ körpüdə işləyən fəhlələrin də orkestrini çağırmışam. Onlardan nümayəndə də gələcək. Rayon qəzetinin müxbirini xüsusi dəvət eləmişəm. Qoroz, elə toy olacaq ki, gəl görəsən.

Ziynət. Hamısını bu gün elədin?

Surxay. Hamısını bu gün... Razı qaldın?

Ziynət. Qaldım.

Surxay. Onda icazə ver, yenə köhnə havanı çalmağa başlayım.

Bayırdan Zalxanın səsi gəlir.

Z i y n ə t. Zalxadır. Gəlib yenə bizi bir yerdə görəcək.

S u r x a y. Ziynət! Onunla dəmirçi Musa barədə söhbət apar, mənim işim var, gedirəm.

Z i y n ə t. Yox, mən heç bir söz deyə bilmərəm. Sən danış.

S u r x a y. Yaxşı, dayan, onda ikimiz danışaq, sən qorxma, möh kəm dur...

Z a l x a içəri girir.

Z a l x a. Yenə də pıçı-pıçı? Ay ağrınızı alım, o qədər pıçı-pıçı elədiniz ki, kolxozda xırda uşaq əlindən ayaq atmaq olmur. Bəs deyil?

S u r x a y. Zalxa xala, siz həmişə bizi danlayırsınız.

Z a l x a. Bu saat iş xirtdəkdən, kolxoz geridə qalır, bu nə bayramdır, bilmirəm. Bu nə siyahıdır vurmusunuz?

S u r x a y. Birinci sizin adınızdır.

Z a l x a. Axı, bunu niyə vurmusunuz? Planı doldurmusunuz, ya nə olub? İş görməkdənsə, saqqız çeynəyirsiniz. (*Ziynəti göstərir*) Buna bax, bəxtəvər gündə bir paltar geyir.

Z i y n ə t. Ay Zalxa xala, niyə geymirəm ki? Bəs, kimin üçün işləyib qazanıram?

Z a l x a. Hələ bu kolxozu bir ağ günə çıxarın, sonra geyinmək gözünüzə görünsün.

S u r x a y. Sizin kimi bütün ili bir paltarda gəzməyəcək ki.

Z a l x a. Daha mənim geyinib zivər-zivər gəzmək vaxtım keçib...

Z i y n ə t. Heç keçib eləməyib. Təzə paltar sizə elə yaraşar ki...

S u r x a y. Adam da, vaxtsız-günsüz özünə qoca deyər? Belə bir zamanda yaşayan adam özünü vaxtından qabaq qocaltmaz. Anam-bacım olasınız, xanım-xatın bir arvadsınız, sizə nə olub ki?

Z a l x a. Balam, nə tərifləyirsiniz məni? Elçi-zad gəlməmisiniz ki.

S u r x a y. Əslinə qalsa, Zalxa xala, sizə bir mühüm söz demək istəyirik, amma qorxuruq.

Z a l x a. Nədən qorxursunuz?

Z i y n ə t. Xasiyyətiniz bir az tünddür, ondan qorxuruq.

S u r x a y. Bir söz deyən kimi o saat partlayırsınız.

Z a l x a. Partlayaram, bəs necə? Deyin görüm, nə sözdür.

S u r x a y. Ziynət, başla.

Z i y n ə t. Yox, sən başla.

Z a l x a. Di söz güləşdirməyin!



Z i y n ə t. Məsələ ondadır ki, Zalxa xala, görürsən ki... Surxay, sən de, mənim boğazım tutulub.

S u r x a y. Məsələ ondadır ki, bizi sizə elçi göndəriblər.

Z a l x a. Hə, məni ələ salanın gərək başı çiynində qalmasın ha...

Z i y n ə t. O yazığın qohum-qardaşı yoxdur, bizi göndərib sizin yanınıza...

Z a l x a. Kimdir axı?

S u r x a y. Dəmirçi Musa.

Z a l x a. Ah, onun ömrü çürüsün, bir o qalmışdı?

S u r x a y. Toxtayın, ay arvad, sözümüzün quyruğu qalıb.

Z a l x a. Onun əlindən mən prokurora şikayət yazmaq istəyirəm.

Z i y n ə t. Bilirsiniz o sizi nə qədər istəyir? Yazıqdır. Saqqalını qırxdırıb, görkəmini dəyişdirib ki, gözə xoş görünsün. Siz gərək onun baxışlarından ürəyində nələr olduğunu başa düşəsiniz.

S u r x a y. Utanmayın. Biz də sizin övladlarınız, nədən utanırsınız?

Z a l x a. Onunla heç mələk də yola gedə bilməz.

S u r x a y. Uzun zaman subay qalmış adam həmişə bədxasiyyət olur, hirsli olur. Sonradan hamısı düzələcək.

Z a l x a. Canım, onunla heç söhbət eləmək mümkün deyil, birtəhər adamdır.

Z i y n ə t. Siz ona təsir eləyəndən sonra bütün xasiyyəti dəyişəcək.

Z a l x a. Yox, mən gərək fikirləşəm.

S u r x a y. Əlbəttə, fikirləşin, amma burada bir iş var, Zalxa xala! O sizinlə söhbət eləməyə utanır, kütlədən ayrılıb, geridə qalıb. Siz bir qabaqcıl kolxozçu kimi, gözüaçıq yeni bir insan kimi gərək onunla söhbətə başlayasınız. Onda ürəyinin bütün dərdini sizə deyəcək.

Z a l x a. Yox, mən gərək fikirləşəm.

Z i y n ə t. Fikirləşməyə vaxt yoxdur. Onu bu gün iclasa gətirmək lazımdır. Siz deməsəniz, gəlməyəcək, Kərəmovla arası yoxdur.

Z a l x a. Elə iş olar? Mən ona nə deyim? Sizin kimi pıçı-pıçı eləyim?

S u r x a y. Bu gecə siz Musa dayını bura gətirməsəniz, Kərəmov, Mirzə Hüseyn sübut edəcəklər ki, təqsirlərin hamısı ondadır.

Z a l x a. Kərəmovla mən danışacağam.

S u r x a y. Sübut lazımdır. Sübut da Musada... Canlı şahiddir. Gedin, Zalxa xala, yazıqdır, əllərinizi uzadıb, onu fərdiyyətçilikdən çıxardın. Gedək, Ziynət, kömək elə.

Z a l x a. Deyirsiniz, gedim də...

Qolundan tutub Zalxanı çıxardırlar. K o l x o z ç u l a r yavaş-yavaş səhnəyə toplaşırlar.

M e h r a l ı. Birinci biz gəlmişik. Deyəsən, heç kəs yoxdur.

Ş i r ə l i. Otur, yığışarlar. Yanını yerə qoy.

İ b r a h i m k i ş i. Kərəmovun səsini eşitdiniz? Gur-gur gurul-dayırdı.

T ə m r a z. O cür guruldamağına baxma, qorxaqdır.

M e h r a l ı. Haray salır ki, iclasda danışan olmasın. O cür məsələləri biz yaxşı bilirik...

M i r z ə H ü s e y n qaçaraq gəlir.

M i r z ə H ü s e y n. Kərəmov, hanı yoldaş Kərəmov?

M e h r a l ı. Nə var, Mirzə Hüseyn? Tələyə düşmüş dovşan kimi nə o yan-bu yana qaçırsan?

M i r z ə H ü s e y n. Nə olacaq, şəhərdən iki maşın göndəriblər, içi dolu araba təkəri, Kərəmov yoxdur. Kərəmov! Yoldaş Kərəmov! (*Gedir*)

Ş i r ə l i. Nə qaçır!.. Məqalədən sonra yaman əl-ayağa düşübdür.

M e h r a l ı. Məqalə çox gözəl yazılıb.

İ b r a h i m k i ş i. Müəllimə əhsən!

M e h r a l ı. İş müəllimdə deyil, müəllimin də müəlliminə əhsən.

T ə m r a z. Sən kimi nəzərdə tutursan?

M e h r a l ı. Ziynəti, bu işləri Ziynət qaldırıb meydana çıxartdı. Gəlinim olsun, çox ağıllı, tədbirli qızdır.

Ş i r ə l i. Gözünü çək, Mehralı, gəlinin ola bilməyəcək. Surxay ona bərk bənd olub.

Ş e y d a içəri girir.

M e h r a l ı. Xoş gördük, yoldaş müəllim! Əyləş. Gəl bura, aramızda otur. Kərəmov, deyəsən, səni bu gün hədələyirdi.

Ş e y d a. Hə, deyir ki, aslanı yaralamısan.

Ş i r ə l i. Sən də cavab ver ki, aslanı yox, çaqqalı yaralamışam.

Gülüşürlər.

M e h r a l ı. Yaxşı, yoldaş müəllim, kefin yoxdur, nə olub?

Ş e y d a. Heç...

M e h r a l ı. Yox, bu heçə oxşamır, nə var? Dərdini elə de, el hər dərdə şəfa tapar. Dərdini gizlədən, davasını tapmaz.

Ş i r ə l i. Dərdini qoy dərdim üstə, onu da mən çəkərəm.



İ b r a h i m k i ş i. Dərdi verən, dərmanını da verər.

T ə m r a z. Dərd bir olsa, dirilməyə nə var?

M e h r a l ı. Dərd xalvar ilə gələr, misqal ilə çıxar... Danış görək, utanma...

Ş e y d a. Heç... Bir elə dərdim yoxdur.

M e h r a l ı. Kamilə haradadır? Gözümüzə dəymir.

İ b r a h i m k i ş i. Yoxsa, yoldaş müəllim, dərdin qız sarıdandır?

Ş e y d a. Kərəmov qızı iclasa qoymadı.

M e h r a l ı. Budur ha... Dərdin qabığını sındırdın, içindəki məlum oldu.

Ş e y d a. Bilirsiniz, onun başına nə oyun açır?..

Ş i r ə l i. Təqsir qızın özündədir, niyə onun əlində əsir-yesir qalıb, başa düşmürəm.

Ş e y d a. Deyir, mənə atalıq eləyib... Ona görə ürəyini sındırmaq istəmirəm.

M e h r a l ı. Yox, qızı o vəziyyətdə qoymaq olmaz, müəllim, indi ki, sən onu o qədər istəyirsən...

Ş i r ə l i. Qız da, maşallah, yaxşı qızdır...

M e h r a l ı. Qıza söz ola bilməz. İndi ki, ürəyiniz bir-birinə qonub, götür gəl evə, qoy Kərəmov çığıra-çığıra qalsın.

T ə m r a z. İndi bu iclasdan sonra yazıq o qızın gününə. Yox, gərək müəllim qızın dərdinə qala.

Ş e y d a. Necə qalım, axı?

M e h r a l ı. Mən deyən kimi elə: götür qızı, apar evinə, qurtarsın getsin!

Ş i r ə l i. Lap günü sabah, qızı götür apar bizim əmioğlunun yanına, adınızı dəftərə yazsın, qurtarsın getsin.

M e h r a l ı. Doğrudan, Şirəli, sənin əmioğlun ZAQS-dır, axı.

Ş i r ə l i. Gedib bu saat əmioğlunu başa salarıq, səhər tezdən idaroni açıb sizi gözləyər. Sonra da toy...

Ş e y d a. Yəni, mümkün olar?

Ş i r ə l i. Niyə olmur? Çox gözəl olar. Durun gedək, əmioğlu yəqin bu saat buralardadır.

M e h r a l ı. Müəllim, gəl, utanma...

Söhbət eləyə-eləyə çıxırlar. K ə r ə m o v, M i r z ə H ü s e y n və Salmanov içəri girirlər.

Kərəmov. Mirzə Hüseyn, kefini xarab eləmə. Məndən ibrət götür, gör necə aslan kimi dayanmışam. Bax, bu qalın papkaları görürsən?

Mirzə Hüseyn. Bunlar nədir, yoldaş Kərəmov?

Kərəmov. Bunlar, mənim tərcümeyi-halımdır, hələ iki bu qədər evdə var.

Mirzə Hüseyn. Siz böyük adamsınız, yoldaş Kərəmov. Mən kiməm? Balaca bir hesabdar. Amma siz... sütunsunuz... Burada qədrinizi bilmirlər, siz şəhər adamısınız, direktor olası adamsınız.

Kərəmov. Onu gəl, bu həşəratdan soruş. Bir boynu xaltalının biri məni biabır eləsin? O cürlərini mən çox görmüşəm. Onlar ziyalılardır. Düz deyiblər ki, ziyalıdan adam olmaz.

Mirzə Hüseyn. Əlbəttə, sizin kimi igidlərə ziyalılar neyləyə bilər?

Kərəmov. Salmanov, uzaq getmə, mən bir az da hazırlaşmaq istəyirəm.

Salmanov. Baş üstə, yoldaş Kərəmov.

Kərəmov. Gəlin, qapımda növbə ilə qarovul çəkin, heç kəs mənə mane olmasın. (*Çıxır*)

Mirzə Hüseyn. Qol çəkdirdin?

Salmanov. Hazırdı, bir-iki tərifə bənddir.

Mirzə Hüseyn. Ver bura, görüm.

Salmanov. İtirmə ha...

Mirzə Hüseyn ilə Salmanov gedirlər. Musa və Zalxa içəri girirlər.

Zalxa. Bura gəl, bura gəl, utanma.

Musa. Görəsən, o burdadır?

Zalxa. Öz-özünə nə danışırsan? Hündürdən de, biz də eşidək.

Musa. Arvadlarla sülh etmək nə qədər də çətin işdir.

Zalxa. Hə! Başa düşdüm. Söhbət tapmırsan? Onda mən başlayım, a kişi, de görüm, sən kolxoza niyə girmirsən?

Musa. Bunu məndən o da soruşmuşdu.

Zalxa. O kimdir axı?

Musa. Mən göylərlə söhbət eləyirəm.

Zalxa. Çox nahaq, düş bu saat aşağı, sənin göydə nə işin var? De görüm, kolxoza niyə girmirsən?

Musa. O üç nəfər olan yerə mən ayaq basmaram.



Zalxa. Üç nəfər kimdir?

Musa. Kərəmov, Mirzə Hüseyn, Salmanov.

Zalxa. Bu sözündə haqlısan. Demək, onlar olmasa, girərsən?

Musa. O gələcəyin işidir, cürbəcür suallar verib məni dilxor eləmə, ey qadın!

Zalxa. Budur ha, yenə tutması tutdu, çıxdı göylərə.

Bu halda bir dəstə kolxozçu, Surxay, Ziynət içəri girirlər.

Surxay. Hə, bax, buna sözüm yoxdur. Musa dayı birinci dəfə bizim məclisə gəlib. Təbrik eləyirəm.

Ziynət. Təbrik eləyirəm, ay Musa dayı. Zalxa xala, Musa dayı ilə barışmısan, deyəsən?

Zalxa (*Ziynəti bir tərəfə çəkir*). Ziynət, qızım, sənin xətrinə mən onunla söhbət eləyirəm ha...

Musa (*Surxaya*). Surxay, oğlum, yalnız onun xətrinə mən bu Zalxa arvadla söhbət eləyirəm. Mən bütün qadınlara sülh elan eləmişəm, bildin?

Surxay. Bildim, işində ol. Zalxa xala bilirsən nə yaxşı adamdır.

Ziynət (*Zalxaya*). Əlbəttə, eledir, yavaş-yavaş düzələr, kolxoza da girər.

Kolxozçular görüşürlər, gülüşürlər, səs-küy düşür.

Zalxa (*Musaya*). Gedək qabaq cərgədə oturaq. Gəl, utanma. Başını aç, otaqda papaqlı dayanmazlar.

Keçib otururlar. Kərəmov, Mirzə Hüseyn, Salmanov səhnəyə gəlirlər.

Kərəmov. Dayanın! Bu nə səs-küydür? Kolxozdur, yoxsa kolxoz bazarı? Salmanov!

Salmanov. Bəli, yoldaş Kərəmov!

Kərəmov. Otur protokol yaz. Oturun, ay camaat, iclası başlayıram. Bütün kolxozu məhkəməyə verəcəyəm. (*Tribunaya keçib böyük dəftər-kitabları qabağına düzür və bir yekə stəkan su içdikdən sonra təkrar stolun başına keçir*) Yoldaşlar, iclası açıram. Birinci sözü verirəm kolxoz sədri Kərəmov yoldaşa. (*Keçir tribunaya*) Yoldaşlar! Məncə, kolxozun 1938-ci ildə siyasi və ictimai vəziyyətini təhlilə keçməmişdən qabaq...

Təmraz. Yoldaş, oradan mənə bir söz!

K ə r ə m o v. Sus, danışıb məcazımı pozma, sədrin sözünü kəsməzlər, ədəbsiz, o ki, qaldı dünyanın siyasi vəziyyəti, o barədə mən sükut ilə keçirəm. Çünki "Şəfəq" kolxozunun planı doldurmağı, nəinki doldurmağı, hətta artıqlaması ilə doldurmağı, hətta mən yazıb verdiyim protokolda ki, bunların hamısını bir-bir qeyd etmişəm, çünki planın doldurulmağı barədə raport yazanda... (*Fikirləşib bir stəkan su içir*)

O danışa-danışa işıq sönür.

## ALTINCI ŞƏKİL

Gecə. Bir tərəfdə həyət, qalın ağaclar görünür. O biri tərəfdə Kərəmovun evi. Otaq zövqsüz bəzənmişdir, divarda rəhbərlərin şəkli, həmin şəkillərlə yanaşı Kərəmovun öz şəkli. K a m i l ə Şeydanın şəklinə baxıb oxuyur. Ş e y d a həyətə girir. Açıq pəncərədən Kamilənin oxumağına qulaq asır.

K a m i l ə. Bu dağların başı tütün,
Sevənlərin qəlbi bütün.
Əyil üzündən mən öpüm,
Gəl-gəl, sənə gözüm qurban.

Bu dağların başı haça,
Əllərim dolaşdı saça.
İgid yarı alıb qaça,
Gəl-gəl, sənə özüm qurban.

Ş e y d a (*pəncərədən*). Ay sağ ol, demək ikimiz də bir fikirdəyik.

K a m i l ə (*diksinib ayağa qalxır*). Sən burada neyləyirsən? Get, get, bu saat əmim gələr.

Ş e y d a (*pəncərədən otağa girir*). Gəlsin, ondan qorxmuram ki?

K a m i l ə. Şeyda, gecənin yarısıdır, görən olar, hamı iclasdadır, sən burada neyləyirsən? Get.

Ş e y d a. Heç yerə gedən deyiləm, gəlmişəm səni aparmağa.

K a m i l ə. Şeyda, əmim səni burada görsə, qan düşər.

Ş e y d a. Onsuz da, iclasda qan düşdü. Böyük müharibə oldu. Kərəmov, Mirzə Hüseyn, Salmanov bizimkilərin hücumuna davam gətirə bilməyib təslim oldular.

K a m i l ə. Nə danışırsan? Deməli çıxartdılar?

Ş e y d a. Çıxartdılar. Kərəmovun dövranı qurtardı. Dur gedək.



K a m i l ə. Hara?

Ş e y d a. Bizə.

K a m i l ə. Şeyda, gecənin bu vaxtı mən hara gedirəm? Gecədən keçmiş səni burada görsələr, yaxşı olmaz.

Ş e y d a. Bax, bu gün iclasda hamı məsləhət gördü ki, səni elə bu gecə bu evdən çıxarıb aparım evimə.

K a m i l ə. Necə, iclasda? Bizim məsələmizi müzakirəyə qoymuşdular?

Ş e y d a. Yox, rəsmi iclasda bu barədə danışıq getmədi. İclasdan qabaq hamı mənə dedi ki, götür apar. ZAQS müdiri iclasdan sonra evə getməyib, bizi gözləyəcək. Dur, gedək.

K a m i l ə. Gecənin yarısı hansı qız ZAQS-a gedib ki, mən də gedim? Tarixdə belə şey görünməyib.

Ş e y d a. Daha yaxşı. Bizim evlənməyimiz tarixi bir hadisə olacaq.

K a m i l ə. Şeyda! Ciddi olaraq səndən xahiş eləyirəm...

Ş e y d a (*onun sözünü kəsir*). Kamilə! Mən də ciddi danışıram. Səni bu evdə qoymayacağam... Biz ki, bir-birimizi sevirik, nə vaxta qədər ayrı qalaq? Qoyarammı ki, Kərəmov kimi bir adam mənim sevdiyim bir qızı incitsin? Ona acı söz desin? Bax, bu sözləri düz onun üzünə deyəcəyəm. Bu saat iclasdan o, çox pis qayıdacaq, çünki orada onu çul-palaz eləyiblər, mən də ki, qəti fikirlə bura gəlmişəm, gör indi biz rastlaşanda nə həngamə qopacaq. Sənsiz buradan getməyəcəyəm. Əgər haray-huray qopmağını istəmirsənsə, o gəlməmişdən dur, gedək.

K a m i l ə. Mən bütün kənddə biabır olaram. Gecənin yarısı pəncərədən aşıb mənim yanıma gəlməyini eşitsələr, gör nələr danışarlar.

Ş e y d a. Odur ki, dur ZAQS-a gedək. Onda mən sənin yanına qapıdan gələ bilərəm.

Qapı döyülür.

K a m i l ə. Əmim gəldi. Şeyda, qadan alım, bu pəncərədən çıx get.

Ş e y d a. Sağ ol, mən pəncərədən qaçan oğlanlardan deyiləm.

K a m i l ə. Pəncərədən gələ bilirsən, gedə bilmirsən?

Ş e y d a. Adam sevdiyi qızın yanına lap bacadan da düşə bilər, ancaq onun əmisinin qorxusundan pəncərədən qaçmaq bir kişilik deyil. Yerim çox rahatdır. Traktor da qoşsalar, buradan tərpənən deyiləm.

Yenə qapı döyülür.

K a m i l ə. Şeyda! Yalvarıram sənə... Heç olmasa, keç bu biri otağa.

Ş e y d a. Sonra mənimlə gedəcəksən?

K a m i l ə. Gedərəm, söz verirəm ki, gedərəm, qurban olum, dur.

Onu yan otağa salır, sonra qapını açır. K ə r ə m o v, S a l m a n o v, M i r z ə H ü s e y n içəri girirlər.

K ə r ə m o v. Qapını niyə açmırdın?

K a m i l ə. O biri otaqda idim, əmi, eşitməmişəm.

K ə r ə m o v. Qoy qonaqlar getsin, sonra sənlə danışaram. Get, bizə mane olma.

Kamilə çıxır.

M i r z ə H ü s e y n. Sizi incitdilər, yoldaş Kərəmov, incitdilər. Ancaq mərkəz buna yol verməz, sizin kimi nəhəngi çıxarıb, yerinə ağzından süd iyi gələn bir qız qoysunlar?

S a l m a n o v. Ziynət sizin ayağınıza su tökməyə belə layiq deyil, yoldaş Kərəmov!

K ə r ə m o v (*bir az səssiz durur, sonra*). Mən iyirminci ildə bu qəzanın revkomunun müavini idim. At belinə qalxanda quş quşluğu ilə qorxusundan ağacda otura bilməyib uçurdu. İndi gör nə günə qalmışam, uşaq-muşaqlar da mənim üstümə qalxır.

S a l m a n o v. Ərizəniz hazırdır, yoldaş Kərəmov!

K ə r ə m o v. Nə ərizə?

S a l m a n o v. Sizin ərizəniz. Mərkəzə.

K ə r ə m o v. Sən qabaqcadan bilirdin ki, məni çıxardacaqlar?

S a l m a n o v. Xeyr, nə danışırsınız? İclasın axırında yazdım.

K ə r ə m o v. Hə, o ayrı məsələ. Neçə surət çıxartmısan?

S a l m a n o v. On surəti var.

K ə r ə m o v. Çox gözəl, göndərərsən raykoma, ispalkoma. Kənd təsərrüfatı şöbəsinə, kontrol komissionuna, ictimai təminat şöbəsinə. Birini də tik mənim xüsusi işimə.

M i r z ə H ü s e y n. Ataları yandı. Sağ ol, yoldaş Kərəmov.

K ə r ə m o v. Ah, bu saat olaydım rayon prokuroru, bu kəndin camaatının hamısını damlayardım, hamısını. Ax... dərd yandırır məni, kişilər! Ziynət kolxoz sədri! Ziynət ha... Demək, mən daha sədr deyiləm? Demək, daha mənim katibim olmayacaq, qol çəkməyəcəyəm, əmr verməyəcəyəm? Yox, mən buna dözə bilmərəm!

M i r z ə H ü s e y n. Heç elə şey olar? Özbaşınalıq deyil ki?..



K ə r ə m o v. Yanıram, Mirzə, yanıram. Salmanov, o portfeldəkiləri çıxart, görüm. Bu da olmasa, mən çatlayaram. (*Salmanov portfeldən araq və kolbasa çıxarır*) Birinci badəni içək bu arağı icad eləyənin sağlığına.

Salmanov və Mirzə Hüseyn, Kərəmovu qəsdən dalbadal içirdirlər.

S a l m a n o v. Yoldaş Kərəmovun sağlığına.

K ə r ə m o v. Sağ olun, dostlar, sizsiniz mənim pənahım. Mən dünyada iki həqiqətpərəst dost tapmışam, dünyada iki həqiqi insan var. O da Salmanov və Mirzə Hüseyndir. Sağ olun, gül olun, bülbül olun, qəfəsdə olmayın. Sağ olun!

M i r z ə H ü s e y n. İnsan ki, var, quş misalı bir şeydir. Bu gün buradadır, sabah ayrı yerdə. Ortada gərək vəfa ola, vəfa. İndi yoldaş Kərəmov müvəqqəti olaraq işdən çıxıb ha, sən öl, salam verən olmayacaq.

S a l m a n o v. Adam ki, böyük vəzifədə oldu, dostu çox olur. Vəzifədən çıxarılan kimi, elə bil, dostlara güvə düşür. Bir-bir yox olurlar.

M i r z ə H ü s e y n. Amma mərkəz buna yol verməz. Kərəmov kimi adamı uşaq-muşağın əlinə vermək olmaz ki, doğrayıb ulduz qayırsınlar.

K ə r ə m o v. A dostlar, qəm yeməyin, mən yenə sədr olacağam, onların da hamısının anasını ağladacağam. Öpürəm, öpürəm, Salmanov, sənin sağ üzündən, Mirzə Hüseyn, sənin sol üzündən. (*Oxuyur*)

Fələyin bir belə dövrü olacaqmış, nə bilim?
Saralıb bağı-gülüstan solacaqmış, nə bilim?

Kərəmov yavaş-yavaş keflənir.

M i r z ə H ü s e y n. Yuxuladı?

S a l m a n o v. Deyəsən, yuxuladı?

M i r z ə H ü s e y n. Di tez ol, görüm. (*Araq doldurur*) Kərəmov, yoldaş Kərəmov, indi içirik sizin gələcəyinizin sağlığına.

K ə r ə m o v (*sərxoş halda*). Yox, daha içən deyiləm.

S a l m a n o v. Yoldaş Kərəmov, axırıncı badəni gərək içəsiniz.

K ə r ə m o v. Sənin canın üçün, içən deyiləm, dilimə də dəyməyib, yox, yox, sədr araq içməz, mən içən deyiləm. (*Yatır*)

M i r z ə H ü s e y n. Lül keflidir, altı-beş vurur.

S a l m a n o v. Onda bəs gecikməyək.

M i r z ə H ü s e y n. Sən öl, arağa bir dərman qatmışam ki, üç gün ayılmaz... Götür cibindən çekləri, möhürü, gedək.

S a l m a n o v. Hansı cibindədir? Tapançası da var, götürüm?

M i r z ə H ü s e y n. Götür, götür... (*Kərəmov tərpənir*) Yoldaş Kərəmov, sizi soyundururuq ki, yatırdaq, yatasınız, rahat olasınız...

Kərəmov yatır.

S a l m a n o v. Çəkləri, möhürü götürdüm, axtarım, bəlkə cibində nağd pul var.

M i r z ə H ü s e y n. Tez ol, yubanma, qaçaq.

Bu halda Şeyda yan otaqdan çıxır, aralarında bir vuruşma gedir. Kərəmov atılıb ayağa qalxır. Mirzə Hüseyn və Salmanov pəncərədən, qaçırlar. Həyətdə gizlənirlər.

K ə r ə m o v (*Şeydadan bərk yapışır*). Tutmuşam, tutmuşam. Demək, sən məni öldürmək istəyirdin, hə? Mirzə Hüseyn, Salmanov, kəndir gətirin qollarını bağlayaq.

Ş e y d a. A kişi, burax məni, onlar səni soyub qaçdılar. Burax!

K ə r ə m o v. Buraxmıram... (*Çığırır*) Milisioner, milisioner...

Ş e y d a. Kamilə, tez ol, qaç, kəndə xəbər ver. A kişi, burax məni... İşə düşmədim?!

Kamilə çığıra-çığıra kəndə qaçır. Otağın işığı sönür. Həyət işıqlanır. Ağacların arasında gizlənmiş Mirzə Hüseyn və Salmanov görünürlər.

M i r z ə H ü s e y n. Amma, işi bu cür eləmək böyük səhv oldu. İndi daha quş olub göyə də uçsaq da, bizi tutacaqlar.

S a l m a n o v. Yavaş... Eşidərlər, qorxaq!

M i r z ə H ü s e y n. Mən, qardaş, boynuma alıram ki, qorxuram. Elə qorxuram ki, qorxudan cibimdə saatım dayanıb... Salmanov, mən yazığam, balalarım var, çarə tap.

S a l m a n o v. Çarəsi yoxdur. Bu saat kənddə dayanmaq olmaz, taparlar. Siçan tələyə düşən kimi tutularıq. Qaçmaq lazımdır.

M i r z ə H ü s e y n. Hara qaçaq? Hörmətimiz olan bir kənd qalıb ki?

S a l m a n o v. Mənim yalnız şəhərə ümidim gəlir.

M i r z ə H ü s e y n. Düzdür, dahiyanə fikirdir.

S a l m a n o v. Qaçarıq şəhərə, bir-iki həftə gizlənərik, sonra da gedərik uzaq rayonlardan birinə.

M i r z ə H ü s e y n. Onda daha yubanmaq olmaz.

S a l m a n o v. Danışma, özünü ver dağ yoluna, ayrı əlac yoxdur.

Çıxırlar. Otaq işıqlanır.



Ş e y d a. A kişi, burax məni.

K ə r ə m o v. Hara buraxıram? Mən hələ siyasi sayıqlığımı itirməmişəm ki, səni buraxım. Milisioner, milisioner...

Bu halda K a m i l ə, Z i y n ə t, Z a l x a, M e h r a l ı, Ş i r ə l i və bir neçə kolxozçu içəri girirlər.

Ş e y d a. Onların dalınca adam göndərin, qaçdılar!

K ə r ə m o v. Xoş gəlmisiniz... Buyurun, narzan içək.

Z a l x a. Lül keflidir ki... Bura bax, it iyi verir. Haradan qaçdılar, Şeyda!

Ş e y d a. Bu pəncərədən qaçdılar. Kərəmov qoymadı ki, dallarınca qaçım.

Z a l x a. Bəs sən burada neyləyirdin?

Ş e y d a. Mən yan otaqda idim.

M e h r a l ı. Görünür, adaxlıbazlığa gəlibmiş.

Z i y n ə t. Hə, daha yubanmaq olmaz. Mehralı kişi, götür iki nəfər, dayan qaya başında, onlar oradan keçib Sarılar tərəfə ötə bilərlər. Şirəli dayı, tez ol, götür tüfəngi, çıx poçt yoluna, ay Təmraz, sən də Şirəli dayı ilə get. Gərək bu gecə onları tapaq.

Çıxırlar.

K ə r ə m o v (*tək*). Yoldaşlar, səs salmayın, iclası bağlayıram.

P ə r d ə

## DÖRDÜNCÜ PƏRDƏ

### YEDDİNCİ ŞƏKİL

Səhər ertə. Dəmirçi Musanın dükanının qabağı. Dükan bağlıdır. S u r x a y və bir neçə kolxozçu səhnəyə çıxırlar. M e h r a l ı, Ş i r ə l i və sairə kolxozçular onları qarşılayırlar.

S u r x a y. Mehralı dayı, sən get xəbər ver ki, o yoldan keçən olmayıb.

M e h r a l ı. Yaxşı, bəs bu yoldan keçmədilər, o yoldan keçmədilər, quş olub uçdular?

Ş i r ə l i. Yox, onlar bu kənddədirlər. Evləri, anbarları, tövlələri, hətta ot tayalarının arasını möhkəm axtarmaq lazımdır.

S u r x a y. Hər halda tapılacaqlar, geci-tezi var.

Ş i r ə l i. Bəs təzə sədrimiz haradadır?

S u r x a y. İdarədədir, şəhərlə danışır.

Çıxırlar. M u s a zümzümə edərək səhnəyə çıxır.

M u s a. Kimin ki, yarı var, onda qəm olmaz, kimin ki, yarı yoxdur, xürrəm olmaz.

Z a l x a gəlir, onun əlində bir bağlama var.

Z a l x a. Sabahın xeyir.

M u s a. Ay səbbəhükumullahi bilxeyri vəl afiyə. Nə xəbər var, tapıldılar?

Z a l x a . Yox, hələ axtarırlar.

M u s a. Xeyir ola, bu əlindəki nədir?

Z a l x a. Sənə gətirmişəm.

M u s a. Mənə?

Z a l x a. Hə, sənə bir az qatıq, bir az da qaymaq gətirdim ki, ac qalmayasan.

M u s a. Bu yaşa çatmışam, hələ birinci dəfədir ki, yeməyi mənə gətirirlər, özüm hazırlamıram.

Z a l x a. Təqsir özündədir. Bu vaxta kimi bir ağıllı vaxtın olmayıb ki...

M u s a. Zalxa!

Z a l x a. Can, qurban olum, nə var?

M u s a. Əşi, daha bu olmadı ki... Heç bilmirəm, nə cavab verim.

Z a l x a. Elə bunu deyəcəkdin?

M u s a. Zalxa, sənə bir sözüm var.

Z a l x a. De, görüm.

M u s a. O indi kolxoz sədri olub, mən istəyirəm ki...

Cibindən kağız çıxarır

Z a l x a. Hə, başa düşdüm, ərizə yazmısan? Ver görüm. Ziynət səni də kolxoza götürməyib, daha kimi götürəcək?

M u s a (*kağızı verir*). Ancaq bir məsələ var, deyir ki:

Qələm aldım ələ bu nameni cananə yazım,
Şövqdən düşdü əlim, bilmədim, amma nə yazım?

Z a l x a. Bu ərizədir, yoxsa eşqbazlıq kağızı?

M u s a. Xeyr, xeyr, ərizədir... Ancaq məsələ burasındadır ki, çox qarma-qarışıq yazılıb, mən təzə hərfləri hələ yaxşı bilmirəm.



Z a l x a. Eybi yoxdur. Bizim qızlardan birinə verərəm üzünü köçürərlər. Ziynət xətrini o qədər istəyir ki, ərizəni alan kimi səni kolxoza götürəcək.

M u s a (*Ziynət adını eşitcək yenə özünü itirir*). Of... Yenə onun adı çəkildi. Həqiqətən mənim ondan xoşum gəlir.

Z a l x a. Sənin kimdən xoşun gəlir, deyirsən?

M u s a. Heç. Mən... Mən göylərlə danışıram...

Z a l x a. Sən yenə göyə çıxdın? Demədim, düş aşağı? Düş, mən tələsirəm, iş adamıyam, düşdün?

M u s a (*tərini silir*). Of, düşdüm, düşdüm.

Z a l x a. Bir də mən sənin yanında olanda göyə çıxma. Gül kimi torpağımıza nə olub ki?

İbrahim kişi və Təmraz yoldan keçib işə gedirlər.

İ b r a h i m k i ş i. Səhər-səhər bizdən bir salam qəbul eləyin.

M u s a. Qəbul eləyirəm, hələ, üstəlik, mən özüm də birini sizə təqdim eləyirəm.

Z a l x a. İş üstünə gedirsiniz?

T ə m r a z. Səhərə kimi yuxulamamışıq, ona görə də bir az ləng olduq.

İ b r a h i m k i ş i. Kərəmov bərk keflidir, bir kəlmə söz almaq olmur.

M u s a. O elə həmişə kefli idi.

T ə m r a z. Hamımız deyirdik ki, bu nadürüst adamları başından elə, qulaq asmırdı.

Z a l x a. Qoy bir onlar tapılsın, gərək bu kənddə bir büsat quraq ki... Ziynət söz verib, ictimai məhkəmə düzəldəcək.

İ b r a h i m k i ş i. Biz gedək, daha yubanmayaq. Zalxa, Musadan muğayat ol.

Gedirlər.

Z a l x a. Yaxşı, mən gedirəm, vaxtım yoxdur. İşdən sonra gələrəm, doyunca güldən-sünbüldən söhbət eləyərik. (*Çıxmaq istədikdə, Şeyda ilə Kamilənin gəldiyini görüb dayanır*) Yenə pıçı-pıçı, səhər ala-qaranlıqdan?

Ş e y d a. Zalxa xala, icazə verin, sizi öz nişanlımla tanış eləyim...

Z a l x a. Necə, necə?

Ş e y d a (*qulağına pıçıldayır*). ZAQS-a gedirik. Əmisi ayılmamış məsələni qurtarmaq istəyirik.

Z a l x a. Nə danışırsan, müəllim? Musa, eşidirsən? Gəl sizi qucaqlayıb öpüm. (*Onları qucaqlayır, Kamiləyə*) Utanma, ZAQS-a gedəndə utanmırsan, məndən utanırsan? Xoşbəxt olasınız, oğul-uşaq əlindən evə girə bilməyəsiniz.

Ş e y d a. Zalxa xala, bir o qədər də sizin özünüzə lazımdır.

Z a l x a. Mənim yaşım keçib, bala, yarısı da kifayət eləyər.

Ş e y d a. Eşidirsən, Kamilə? Biz gərək belə işlərdə böyüklərdən ibrət alaq.

K a m i l ə. Şeyda, məni utandırma.

Ş e y d a. Sağ olun.

Z a l x a. Xoşbəxt olun, sizə bir toy eləyəcəyəm ki...

Ş e y d a. Bir toy yox, çox toy olacaq.

Çıxırlar.

Z a l x a. Eşidirsən, Musa? Deyir, çox toy olacaq. Başa düşürsən nəyə işarə eləyir?.. Sən də tələs, aç ürəyinin sözünü de, məsələni qurtar...

M u s a. Mənim sözüm ona çoxdan bəllidir.

Z a l x a. Kimə, ona?

M u s a. Zalxa, mən insanların ən bədbəxtiyəm.

Z a l x a. Bədbəxt niyə olursan? Üzün həyalıdır, ürəyindəkini açıb deyə bilmirsən. Utanma, eybi yoxdur. İstəyirsən mən deyim? Bax, qoy bir başımız açılsın, Kamiləni Şeyda ilə, Ziynəti Surxay ilə evləndirərik, *sonra da...*

M u s a. Necə, necə? Mənim qulağım aldandı, nədir? De görüm, ey insan qızı, axırıncı cümləni bir də təkrar elə!

Z a l x a. Səbirli ol, darıxma... Deyirəm qoy qabaqca Ziynət ilə Surxay da evlənsinlər, sonra... Onlar bir-birini dəli kimi sevirlər...

M u s a. Bu nə sözdür mən eşidirəm? Gör mən neyləmişəm, kimə öz sirrimi açmışam? Sevgilini sevgilidən ayırmaq istəmişəm... Ah, aman! (*Ürəyini tutub divara söykənir*)

Z a l x a. Musa, ay Musa, sənə nə oldu? Ay uşaq, kim var orada? Su gətir...

S u r x a y içəri girir.

S u r x a y. Nə olub, Zalxa xala?

Z a l x a. Ay Surxay, bu cür dəmir kimi bir adamın ürəyi xarab oldu...

S u r x a y. Nədən oldu?



Z a l x a. Sevindiyindən. Toydan danışan kimi bu kökə düşdü...

S u r x a y. Yavaş-yavaş özünə gəlir. Sən get, Zalxa xala, mən onu özüm başa salaram.

Z a l x a. Mən gedim görüm, Kərəmovu nə elədilər. Sən bunu başa sal, sevindiyindən ürəyi niyə çıxır?

S u r x a y. Başa salaram, sən arxayın ol.

Zalxa gedir.

S u r x a y. Musa dayı, bir başını qaldır görüm, nə olub?

Musa ətrafa baxır. Zalxanın olmadığını görüb, Surxaya yaxınlaşır.

M u s a. O nə söz idi mənim qulaqlarım eşitdi, Surxay?

S u r x a y. Haradan bilim, Musa dayı? Sizin qulaqlarınız o sözləri eşitdiyi vaxt mən burada deyildim.

M u s a. Bağla söz körüyünün ağzını. Zalxa dedi ki, Ziynət kimə isə ərə gedir?

S u r x a y. Ərə gedir? Nə danışırsınız, a kişi? Kimə ərə gedir?

M u s a. Bilmirsən?

S u r x a y. Bilmirəm. De görək kimə? Tez ol, bağrım çatladı!

M u s a. Zalxa arvad səni nişan verirdi.

S u r x a y. Məni?

M u s a. Səni.

S u r x a y. Hə, məni... Çox gözəl... Doğrusunu desəm, Musa dayı, şeydir... Lap təsadüfi oldu. Bir də, görüm...

M u s a. Bağışla məni, Surxay, iki sevən ürəyin arasına girmək istəyirdim. İndi üzr istəyirəm. Doğrudan da, Zalxa haqlıdır. Mən göylərdən yerə enməliyəm. Budur, sabah-birigün əlli yaşım tamam olacaq. Onun isə hələ iyirmi yaşı yoxdur. Baba nəvəsinə eşq yetirib. Yox, Surxay, mənim bu saat başım daşa dəydi, ayıldım. İndi doğrusunu de görüm, Zalxa nə üçün mənə bu qədər hörmət eləyir, nə üçün?

S u r x a y. Çünki sevir... Sevgi...

M u s a (*onun sözünü kəsir*). Sükut! Bağla söz körüyünün ağzını, qoy fikrimi tamamlayım. Mənim dünyada heç kəsim yoxdur, Surxay! Yetiməm!

S u r x a y. Nə olar ki?

M u s a. Dayan, sözümü kəsmə... Mənim tərəfimdən sən öz sevgilin Ziynətdən üzr istə, de ki, indi mən onu qızım kimi sevirəm.

S u r x a y. Üzr istəmək lazım deyil.

M u s a. Lazımdır, dedim, qurtardı.

S u r x a y. Qurtarmadı, Ziynətin heç bu işlərdən xəbəri yoxdur...

M u s a. Xəbəri yoxdur? Sən mənim sevgimi ona yetirməmişdin?

S u r x a y. Yox.

M u s a. Demək, mən saqqalı da nahaq qırxdırmışam?

S u r x a y. Musa dayı, bax bu mənim başım, bu da çəkic, qoy zindanın üstünə, əzim-əzim elə, səhv eləmişəm.

M u s a. Yox, Surxay, yaxşı olub. Mən onu görəndə xəcalət çəkmərəm. Bağlan, ey köhnə eşq üçün çırpınan ürəyim!

S u r x a y. Bağışla, Musa dayı, ürəyi geniş açmağın əsl vaxtı indidir.

M u s a. Çəkil gözlərimin səkisindən. Mən təzə eşqimin qaymağını yeməyə gedirəm.

Musa, Zalxanın gətirdiyi yeməyi götürüb çıxır. Ş e y d a gəlir.

Ş e y d a. Surxay, bu gün mənim ən xoşbəxt günümdür, niyə təbrik eləmirsən?

S u r x a y. Nə olub ki, Mirzə Hüseyn ilə Salmanovu tutubsan?

Ş e y d a. Yox, tapa bilmədim.

S u r x a y. Yəqin yenə şerin çap olunub?

Ş e y d a. Dostum, bu elə bir işdir ki, yüz şerə əvəzdir.

S u r x a y. Yüz şerə əvəzdir? Bu nə ola bilər? Hə, yəqin istiqrazla pul udmusan?

Ş e y d a. Pul nədir ki, hələ onun haqqında söhbət də aparırsan? Sevgi aləmindən danış!

S u r x a y. Hə, yəqin evlənmisən!

Ş e y d a. Özüdür ki, var, tapmısan. Bu saat ZAQS-dan gəlirəm.

S u r x a y. Ürəkdən alqışlayıram! Gəl səni qucaqlayım. Dostum, xoşbəxtsən ki, o cür üzüyola nişanlın var, sevəndə də gərək o cür qızı sevəsən, yoxsa mənimki kimi?.. İndi də kolxoz sədri oldu, daha heç o barədə danışmağa qoymayacaq.

Ş e y d a. Mən sənə onun yolunu öyrədərəm. (*Yavaşdan*) Pəncərədən düş evlərinə, ha çıx desələr, çıxma.

S u r x a y. Mümkün deyil, Şeyda! Mən çıxmaram, o, məsələni qoyar kolxozun iclasına... Sədrlə o cür zarafat eləmək olar?

Z i y n ə t və K a m i l ə içəri girirlər.



Z i y n ə t. Xoşbəxt ol, bacım! Belə gündə sən gərək sevinəsən, güləsən, niyə belə bikefsən?

Ş e y d a. Əmisinin dərdini çəkir.

Z i y n ə t. Nahaq, əmin qoy öz dərdini özü çəksin.

K a m i l ə. Aləmdə biabır oldum. Hələ indi də keflidir, ayılmır.

Ş e y d a. Bizim evləndiyimizi eşitsə, o saat ayılar.

Z i y n ə t. Şeyda, toyunuz mübarək.

S u r x a y. Hələ toy deyil, toyu ayrıca eləyəcəyik...

Z i y n ə t. Surxay, sən niyə Kamiləni təbrik eləmirsən?

S u r x a y. Sədr imkan verir ki... Kamilə, icazə verin, əlinizi sıxım. Tez-tez ki, müəllimi soruşurdunuz ha, mən bilirdim ki, axırı ZAQS-la qurtaracaq.

Z i y n ə t. Bu cür ciddi məsələni zarafata salmazlar, Surxay!

S u r x a y. Onu özünə de də, heç olmasa, bunlardan ibrət al.

Z a l x a tələsik gəlir.

Z a l x a. Gətirirlər, yer verin, yer verin, gətirirlər.

Z i y n ə t. Kimi gətirirlər, Zalxa xala?

Z a l x a. Kərəmovu gətirirlər, özündən çıxıb, bir yerdə dayanmır.

K a m i l ə. Mən gedirəm. Başımı yerə soxdu... (*Çıxır*)

Ş e y d a. Kamilə, dayan, Kamilə!

Onun arxasınca gedir. M e h r a l ı, Ş i r ə l i və qeyri-kolxozçular K ə r ə m o v u gətirib daşın üstündə otururlar. Onu güclə saxlayırlar, kiminsə üzərinə hücum çəkmək istəyir.

K ə r ə m o v (*bərk keflidir*). Hanı o? Tapın onu, gətirin mənim kabinetimə.

M e h r a l ı. Dayan görək, a kişi! Kimi axtarırsan?

K ə r ə m o v. Onu... o yazanı... məqalə yazanı... Salmanov, protokol bağla!

Z a l x a. Bəs Salmanov, Mirzə Hüseyn hardadırlar? Elə biz də onları axtarırıq, tapsaq, özümüz protokol bağlayacağıq. De görək, haradadırlar?

K ə r ə m o v. Araq şüşəsində.

Z a l x a. Çaxır boçkası kimi doldurub qarnını, üç günə ayılmaz.

Ş i r ə l i. Yoldaş Kərəmov, bəs tapança haradadır?

K ə r ə m o v. Araq şüşəsində, hörmət də araq şüşəsindədir, kef də...

S u r x a y. Bundan bir kəlmə də söz almaq olmaz. Dünya bu saat bunun gözünə araq şüşəsi şəklində görünür.

K ə r ə m o v. Bütün dünya qurulub araq şüşəsinin üstündə, bircə mən ora yerləşmirəm. Mən Kərəmovam. (*Ayağa qalxır, yenə hücum çəkmək istəyir, onu güclə saxlayırlar*) Buraxın məni, mən bu saat yaralanmış aslanam. (*Birdən gözü Ziynətə sataşır*) Görün, mənim yerimə kimi qoydunuz, ağzından süd iyi gələn bir qızı. (*Ziynətə*) Mənim kabinetimə ayağını basma. Bəs, hanı o demaqoq? Mirzə Hüseyn, Salmanov, tutun qapı-pəncərəni, qaçmağa qoymayın.

M e h r a l ı. Bunu kefləndirən araq deyil, vəzifədən çıxarılmağıdır.

Ş i r ə l i. Bundan bir kəlmə də söz almaq olmaz.

Z a l x a. Aparaq salaq zirzəmiyə, ikicə saata ayılar.

K ə r ə m o v. Buraxın məni, özüm gedib onu tapacağam. Buraxın məni, aslan azadlıq sevir.

Kərəmovu aparırlar.

P ə r d ə

## BEŞİNCİ PƏRDƏ

### SƏKKİZİNCİ ŞƏKİL

Xalçalar döşənmiş böyük çəmənlik. Bir tərəfində çay dəsgahı, o biri tərəfdə kabab bişir. Uzaqdan gülmək, oxumaq, tar, kamança səsi gəlir. Kolxozun məhsul bayramıdır. Təzə paltar geyinmiş kolxozçular çəmənlikdə gəzişirlər. M u s a və Z a l x a səhnədədirlər.

M u s a. Aç bu sevda kəməndini mənim boğazımdan, Zalxa!

Z a l x a. Dayan görüm, tərpənmə. Mən heç bunu bağlaya bilmirəm ki, ha eləyirəm, düyün düşür. Bəs, necə eləyirlər ki, bu cür fasonlu olur?

M u s a. İnsan paltarı zinətləndirir, Zalxa, paltar insanı yox. Bu sevda kəməndini taxmasam da, mən yaxşı adam ola bilərəm.

Z a l x a. Az danış, dayan görüm, mən istəmirəm ki, bu cür bayramda ərim başqalarından pis geyinsin.

M u s a. Sən yaxşı geyinsən, mənə bəsdir.

Z a l x a. Mən yaxşı geyinməmişəm? Xoşuna gəlmir?

M u s a. Bir şeyə mən təəccüb eləyirəm, Zalxa. Necə olur ki, al da geysən sənə yaraşır, şal da. (*Oxuyur*)

İstər aç mahi-rüxün, istər nihan et, naz ilə,
Təki günüm keçsin mənim sən dilbəri-tənnaz ilə.



Z a l x a. Necə də təsbeh kimi bir-birinin dalınca düzüb danışa bilirsən? Bu sözlərin hamısının mənası var, yoxsa ağzına nə gəldi, deyirsən?

M u s a. Mənimləsən?

Z a l x a. Yox, mən də göylərlə söhbət eləyirəm.

M u s a. Zalxa! Göydə sənin nə işin var? Yıxılarsan, düş aşağı.

Gülürlər.

Z a l x a. Maşallah, lap cavan oğlan olmusan, Musa!

M u s a. Bəs, saqqalımı qırxdırdığım üçün məni danlayırdın?

Z a l x a. Saqqalın da pis saqqal deyildi, hayıfım gəlirdi.

S u r x a y səhnəyə gəlir.

S u r x a y. Bu nədir, yenə pıçı-pıçı! Hara gedirəmsə, bunlara rast gəlirəm, pıç-pıç, pıç-pıç...

M u s a. Surxay, axı, bu ki, mənim qanuni həyat yoldaşımdır.

S u r x a y. Sükut! Bağla söz körüyünün ağzını. Təzə kolxozçusan, təzə bəy. Gərək bir yaxşı oynayasan.

Z a l x a. Surxay, qurbanın olum, əl çək kişidən, bizi biabır eləmə.

S u r x a y. Yox, Zalxa xala, mən sizinçün çox əziyyət çəkmişəm, ikiniz də oynamalısınız.

M u s a. Surxay!

S u r x a y. Çəkil gözlərimin səkisindən, oyna dedim, qurtardı. (*Səhnə arxasına*) Ay Şirəli dayı, zurnaçıları da götür gəl, burada bir cüt həvəskar oynayan var.

M u s a. Zalxa, tez gəl, bu ara yoldan əkilək.

Z a l x a. Surxayı mən tanıyıramsa, onun əlindən yaxa qurtarmaq mümkün deyil. Yaxşısı budur, oynayaq. Mən sənin oynamağını heç görməmişəm.

M u s a. Mən heç oynamamışam.

Z a l x a. Eybi yoxdur, öyrənərsən.

Şirəli, kolxozçular, zurnaçılar gəlirlər. Onlar səhnədə olarkən Z i y n ə t içəri girir. Ziynətə xüsusi yer verirlər.

Ş i r ə l i. Ay Surxay, oynayanlar kimdir?

S u r x a y. Budur, bax, bu iki cavan növrəstə.

İ b r a h i m k i ş i. Mən də dedim, sən Bakıdan, filarmoniyadan rəqs dəstəsi çağırmısan.

Təmraz. Musa oynasın. Onun oynamağını biz heç görməmişik.

Surxay. Yox, mən oynayanların siyahısını tutmuşam. Birinci Zalxa xalanın adıdır.

Musiqi çalınır. Zalxa oynayıb, Musanı dəvət eləyir, ikisi oynayır.

Şirəli. Əcəb oynadınız. Papaq altında oğlanlar varmış, amma bizim xəbərimiz yox.

İbrahim kişi. Sən də bir oxu görək, Şirəli.

Təmraz. Hə, əcəb dedin. Bir-iki zəngulə vur görək.

Şirəli. Yox-yox, boğazım qaydasında deyil, dünən soyuq su içdim.

İbrahim kişi. Təzə sədrimiz buradadır. Oxumasan, şikayət eləyəcəyik.

Şirəli. Yox, məsələni Ziynət bacıya aparıb çıxartmayın, oxuyaram. Nə oxuyum?

Təmraz. Nə idi o? Oxuyurdun... "Özü bilsin"... (*Zurnaçılara*) Pəsdən malalayın görək.

Musiqi çalır. Şirəli oxumağa başlayır.

Şirəli:

Mən vermişəm öz könlümü yarə, özü bilsin,
Qoy eləməsin dərdimə çarə, özü bilsin.

Yüz yol dedim əğyar ilə gəzmə, yenə gəzdi,
Ölsəm dəmərəm, bir də dübarə, özü bilsin.

Hamı ona əl çalır, səhnə arxasından orkestr səsi gəlir.

Surxay. Odur ey... Orkestrimiz də gəldi.

Tələsik durub səhnə arxasına gedirlər. Surxay da getmək istədikdə Ziynət saxlayır.

Ziynət. Nə var, Surxay?

Surxay. Heç...

Ziynət. Düzünü de.

Surxay. Heç...

Ziynət. Bu gün kolxoz sədrinə yaxın gəlmirsən?

Surxay. Kolxoz sədrinin sözü mənimçün qanundur.

Ziynət. Bəs Ziynətin necə?

Surxay. Ziynət mənə məhəl qoymayandan sonra neyləyə bilərəm?



Ziynət. Surxay, görmürsən başım nə qədər qarışıqdır?

Surxay. Mən belə olacağını əvvəldən bilirdim. Ona görə də susuram, bir söz demirəm.

Ziynət. Yox, susmağını istəmirəm, de, ürəyində nə sözün var, de!

Surxay. Nə çıxsın? O qədər demişəm ki, söz kasam boşalıb. Sən heç bir cavab vermirsən.

Ziynət. Bəlkə mən də bir cavab hazırlamışam?

Surxay. Qəti cavab?

Ziynət. Qəti.

Surxay. Onda bu saat ürəyimi süfrə kimi sənin qabağında açaram...

Şeyda içəri girir.

Şeyda. Salaməleyküm...

Surxay. Qoymazlar ki...

Şeyda. Bizim uşaqların anasını görməmisiniz?

Ziynət (*gülür*). Uşaqların anasını?

Şeyda. Gələcək uşaqların anasını demək istəyirəm.

Ziynət. Mən görməmişəm.

Surxay. Mən görmüşəm, bax, indicə belə getdi. (*Sağ tərəfi göstərir*)

Şeyda. Bağışlayın... Təcili ailə söhbətimiz var, gedim tapım... (*Çıxır*)

Surxay. Ziynət, bayaqdan gülürdün, oynayırdın, ancaq ürəyimin lap dərinliklərində bir dərd vardı, məni rahat qoymurdu.

Ziynət. Nə dərd?

Surxay. Sevgi dərdi... Bir ətrafına bax, hamı sevişir, hamı toy eləyir... (*Kamilə içəri girir*) Xeyr a... Qoymazlar ki...

Kamilə. Ziynət can, mən bayaqdan səni axtarırdım.

Ziynət. Məni axtarırdın, ya Şeydanı?

Kamilə. Bilmirəm o da hara getdi?

Surxay. Şeyda elə bu saat, bax, belə getdi... (*Sol tərəfi göstərir*)

Kamilə. Bu tərəfə getdi? Mən onu tapıb, bu saat qayıdım. (*Çıxır*)

Surxay. Hə, onu deyirdim ki, hamı sevişir, hamı toy eləyir...

Kolxozçular içəri girirlər.

İbrahim kişi. Ziynət bacı, qonaqlar gəlib... (*Səhnə arxasına*) Ay Şirəli, bura gəlin, kolxoz sədri burdadır...

Surxay. Qoymadılar iki kəlmə söz danışım... Bəxtim yoxdur ki...

Şirəli qonaqlarla gəlir.

Z i y n ə t. Xoş gəlmisiniz... Ay uşaq, oradan stul verin.

T ə m r a z. Stulu neyləyirlər? Burada, göy çəmənin üstündə otururlar.

Hamı oturur. Z a l x a və M u s a içəri girirlər.

Z a l x a. Gəl, ay Musa, qorxma, daha oynatmazlar. Biz öz toy payımızı oynamışıq.

İ b r a h i m k i ş i (*qonaqlara*). Bayaq soruşduğunuz məşhur dəmirçi Musa budur. Tanış olun...

T ə m r a z. Musa dayı, qonaqlar sənlə maraqlanırlar. Deyəsən, sənsiz körpünü başa çatdırmaq mümkün olmayacaq.

M u s a. Məndən asılı iş varsa, deyin, canını alım. Salaməleyküm... Tanış olun, bu da mənim həyat yoldaşımdır.

Zalxanı onlarla tanış eləyir, hamı oturur.

Ş i r ə l i. Yoldaş kolxoz sədri, belə olmaz ha... Tez-tez bizi tək qoyub qaçırsan...

S u r x a y. Əşi, bizim burada kolxoz sədri ilə mübahisəmiz düşüb. Mən ona çox gözəl, təsərrüfatı genişlədən təkliflər eləyirəm. O razı olmur. İndi yoldaş kolxoz sədri, bax, bu camaatın qabağında de, mən neçə vaxtdır, sənə elədiyim təklifə razısan, ya yox?

Z i y n ə t. Sən ki, deyirsən o təklif bizim təsərrüfatımızın genişlənməyinə kömək eləyər, yaxşı, razıyam...

S u r x a y. Dirildim. Bu sözdən sonra mən dirildim. Usta, çal!

Ş i r ə l i. Kim oynayacaq?

S u r x a y. Mən, Kərəmov.

Hamı gülür. Surxay oynayır, sonra Ziynəti qaldırır, o da oynayır. Bu halda bir neçə k o l x o z ç u içəri girir.

S ə s l ə r. Mehralı dayı gəldi, Mehralı dayı gəldi.

M e h r a l ı içəri girir.

Z i y n ə t. Haçan gəlmisən, Mehralı dayı?

M e h r a l ı. İndicə, hələ atımın təri soyumayıb.

İ b r a h i m k i ş i. Lap vaxtında gəlmisən.

Z a l x a. Danış görək, neylədin?

M e h r a l ı. Balam, sizə bir şad xəbər verəcəyəm ki, lap ləzzət eləyəcək... Bu dələduzları, Mirzə Hüseyn ilə Salmanovu tapdılar, axı.

Z i y n ə t. Tapdılar?



S u r x a y. Danış görək, necə tapdılar?

M e h r a l ı. Necə tapdıqlarını danışmaq uzundur. O, süfrə başında olunası söhbətdir. Müxtəsər, bankdan bizim çeklərlə pul alanda hərifləri qamarlayıblar. Bu belə. Sonra da şəhər bankının direktorunun kabinetinə getdim. Salam verib oturdum... Bir xoşəhval oğlandır.

S u r x a y. Mehralı dayı, ucundan tutub ucuzluğa getmə.

M e h r a l ı. Qərəz ki, tapşırdım, bizim sçotdan bir qəpik də olsun Kərəmovun qolu ilə pul buraxılmasın. Sözlərimi o saat başa düşdü, zəngi basdı, içəri gözəşirin bir qız gəldi. Direktor bu qızı başa saldı, qız da mənə baxıb gülümsədi. Dedim, elə o mənə bəsdir, durub düzəldim yola...

Z i y n ə t. Mehralı dayı, bəs, mənim qolumu təsdiq elədilər?

M e h r a l ı. Göydə... Direktorun yanından keçdim buxalterxanaya, bir arvad var idi ki, sən öl, Şirəli, bax, o ağac yoğunluğunda. Baxan kimi dedi, mojna. Mojnanı alan kimi Mehralı sıçradı atın belinə.

İ b r a h i m k i ş i. Mehralı! Bəs Kərəmovdan bir xəbər bilmədin?

M e h r a l ı. Necə bəyəm, Kərəmov gəlib çıxmayıb? O məndən qabaq yola düşdü.

Z i y n ə t. Onun işi nə oldu? Bizdən şikayətə getmişdi.

M e h r a l ı. Təkrar bu kolxoza göndərirlər, sıravi kolxozçu kimi... Qoy işləyib, özünü düzəltsin...

T ə m r a z. Susun... Sakit olun... Kərəmov gəlir.

K ə r ə m o v içəri girir. Adi paltar geyinmişdir.

K ə r ə m o v (*bir qədər sükutdan sonra*). Ziynət! Sən bir kolxoz sədri kimi katibinə əmr elə, protokol yazsın. Eybi yoxdur, mən bu gündən başlayıram sizin səhvlərinizi öz boynuma almağa.

Z i y n ə t. Bizim səhvlərimizi yox, öz səhvlərini... Protokol da bağlamaq lazım deyil.

K ə r ə m o v. Mübahisə eləmə, protokolsuz kolxoz sədri olmaz. Məndən sənə vəsiyyət, camaatla yaxşı dolan, çığır-bağır salma. İşlə... Amma işlərin hamısını protokoldan keçirt... Bağışlayın məni, camaat. Mən elə bu dəqiqədən işə gedirəm.

Z a l x a. Kərəmov, otur görək. Bu gün məhsul bayramıdır, işə sabah başlayarsan...

K ə r ə m o v. Xeyr, mən bu dəqiqədən başlayıram. Görün başınıza nə oyun gətirəcəyəm! Salmanov! (*Gülüş*) Of, bağışlayın. Neçə ilin adətidir. O cür xəyanətkar adamları başıma yığmışdım, ona göro bu günə

düşdüm. (*Sağ tərəfdən getmək istəyəndə, qabağına Şeyda çıxır*) Aha... Məqaləni yazan bu idi. (*Gülüş*) Bağışlayın. Yenə yadımdan çıxdı. Şeyda, oğlum, mənim ayılmağıma səbəb sənin məqalən oldu. (*Geri qayıdıb soldan çıxmaq istədikdə, qabağına Kamilə çıxır*)

K a m i l ə. Əmi...

K ə r ə m o v. Min kərə demişəm ki, idarədə mənə əmi demə... Yox, qızım, sən də məni bağışla, hanı o, hə... Şeyda, bura gəl. Təbrik eləyirəm. Mən razıyam.

Ş e y d a. Nə olubdur ki?

K ə r ə m o v. Mübahisə lazım deyil. Sizin evlənməyinizə mən Kərəmov icazə verirəm. Qurtardı.

S u r x a y. Kərəmov ömründə bir yaxşı iş gördü, o da budur. Camaat, Musa dayının toyu qarışdı hamımızın toyuna.

K ə r ə m o v. Elə mənə də toy elədiniz. Yaxşısı budur çalın, özüm öz toyumda oynayım.

Çalırlar. Kərəmov oynayır.

P ə r d ə



# XOŞBƏXTLƏR

*4 pərdə, 5 şəkildə*

## İŞTİRAK EDƏNLƏR

M ü r ş ü d – mühəndis
İ n c i – onun arvadı
S a d ı q – mühəndis
G ü l ə r – onun arvadı
N ə s i r o v – tikintinin rəisi
B ə r b ə r z a d ə – təchizatçı
M a r a l – yerli komitənin sədri
M i r z ə Q ə r ə n f i l – rəisin müavini
S ə n u b ə r – katibə
U s t a S e g a h – rəngsaz
İ k i n c i G ü l ə r – rəngsazın şagirdi
H ə l i m ə – yerli komitənin işçisi
C ə l i l – işçi
B i r i n c i i ş ç i
İ k i n c i i ş ç i
Ü ç ü n c ü i ş ç i
F o t o q r a f, i ş ç i l ə r, q o n a q l a r və başqaları

## BİRİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Böyük bir istirahət evinin tikintisi, səhnədən dəstə-dəstə işçilər danışa-danışa keçirlər. Səhər tezdəndir. N ə s i r o v qəti addımlarla səhnəyə çıxır, o yan-bu yanı gəzir. Bərbərzadənin otağına baxır, bir-iki ağız Bərbərzadəni səsləyir, sonra Maralın otağına baxır, yuxarı boylanaraq, "Mirzə Qərənfil" deyə səslənir, heç bir cavab olmur. Səhnədən çıxmaq istədikdə, b i r i n c i i ş ç i və i k i n c i i ş ç i ilə qarşılaşır.

N ə s i r o v. Hə, gəlmisiniz?

B i r i n c i i ş ç i. Çoxdan, yoldaş Nəsirov! Odur ey, dülgərlər, dəmirçilər işə başlayıblar. Biz də gərək damı düzəldək, ancaq materiallarımız yoxdur. Bərbərzadə hələ gəlməyib.

İ k i n c i i ş ç i. Rəngsazlar da orada avara qalıblar. Materialları yoxdur.